## "Forbes": "Rusiya ötən gün Ukraynaya 400-500 milyon dollarlıq raket atıb"



**Rusiya dekabrın 5-də Ukraynaya ümumilikdə 400-500 milyon dollarlıq raket atıb.**

"Report" xəbər verir ki, məlumatı "Forbes" yayıb.

Bildirilib ki, bunlar qiyməti 13 milyon dollar olan 38 "X-101" qanadlı raketi, 4 milyon dollarlıq "X-555", 6,5 milyon dollarlıq 22 qanadlı "Kalibr", bir milyon dollarlıq 3 qanadlı "X-22", 0,5 milyon dollar dəyərində 6 "X-59" qanadlı raket, 0,5 milyon dollar dəyərində "X-31P" qanadlı aviasiya raketidir.

*Elmar Məmmədyarov:*

## "Əsər yazıram, vaxtı gələndə oxuyarsınız"



**Azərbaycanın sabiq xarici işlər naziri Elmar Məmmədyarov yazıçılığa başlayıb.**

Bu barədə Qaynarinfo-ya Məmmədyarov özü məlumat verib.

Bildirib ki, hazırda əsər yazır və yazılarının siyasətlə bağlılığı yoxdur: "Hazırda əsər yazıram. Siyasətlə heç bir bağlılığı yoxdur. Vaxt gələcək, əsərlərimi oxuyacaqsınız".


№ 223 (5744), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 dekabr 2022-ci il (çərşənbə)




## Azərbaycan Laçın dəhlizində nəzarət postu qurmaqda israrlıdır

Hadisələrin inkişafı bunun reallaşmasına doğru yönəldilir

**"Rusiya sülhməramlı kontingentinin rəhbəri general Volkovun "Laçın dəhlizinin girişinə mini gömrük postu quraşdırılacaq" açıqlaması Azərbaycanın dəhlizə post quraşdırması demək deyil, postu ruslar qurur, lakin Bakının tələbi ilə..".**

Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, mümkündür ki, Bakı dəhlizdən qanunsuz daşımaların qarşısının alınması tələbini sülhməramlıların qarşısında qaldıranda onlar Volkovun məlum müsahibəsində dediyi kimi "texniki imkanlarımız yoxdur" bəhanəsini irəli sürürmüş: "Bundan çıxış yolu kimi Bakının tələbi və istəyi ilə rusların nəzarət edəcəyi mini gömrük postun qurulması razılığı əldə olunub.

(səh.2)



## Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlanacaq

**Prezident İlham Əliyev Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, 2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib.

Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir. Sərəncamla Nazirlər Kabinetinə Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək və Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

# Türkiyə qoşunları Azərbaycanda qalacaq

"Təhdid haradan gəlir-gəlsin, tək ordu, tək güc və tək yumruq olarıq"



"Ankara-Bakı birgə genişmiqyaslı hərbi təlimləri təkcə İrana deyil, Rusiyaya da mesajdır"

**Azərbaycan-Türkiyə birgə taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.**

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri cənab Hulusi Akar və digər rəsmilər "Qardaş yumruğu" təlimini izləmək üçün təlim poliqonuna gəliblər.

Məruzə edilib ki, ssenariyə uyğun olaraq Azərbaycan Ordusunun bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə qarşılıqlı əlaqədə müxtəlif təlim döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirirlər.

(səh.3)

## Millət vəkilləri qanundakı boşluqları tənqid etdilər

Partiya üzvlərindən identifikasiya nömrələrinin tələb olunması doğru deyil



**Milli Məclisin dünənki iclasında deputatlar "Siyasi partiyalar haqqında" qanun layihəsinə dəyişikliklər təklif ediblər.**

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev partiya üzvlərinin fərdi identifikasiya nömrələrinə dair tələbin ləğvini təklif edib.

(səh.3)

# Tıxaclardan qurtuluş yoxdur

"1 manatlıq" taksilər problemlərin yalnız bir fraqmentidir



**Bakı Nəqliyyat Agentliyi, yollarda tıxaca düşüb əsəb, stress keçirən sərnişinlərin dərdinə şərik çıxdı.**

Tıxac probleminin həlli ilə bağlı mütəxəssislərin illərdir təkidlə səsləndirdiyi təklifləri də, nəhayət, diqqətə aldı. Və ictimai nəqliyyatın tıxacdan çıxması üçün avtobus zolaqlanın çəkilməsinin optimal həll yolu olduğunu təsdiq etdi. Xüsusi avtobus zolaqları ilə bağlı dünən keçirilən mətbuat konfransında çıxış edən BNA mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirib ki, son aylarda yollarda müşahidə olunan tıxac, sıxlıq və avtobusların gecikməsi müvafiq tədbirlərin həyata keçirilməsini daha da aktuallaşdırır.

(səh.6)



## DSX Akademiyada baş verən yanğının vurduğu ziyanı açıqladı

**Dövlət Sərhəd Xidməti (DSX) Akademiyasının əsas korpusunda baş vermiş yanğın tam olaraq söndürülmüşdür.**

Akademiyanın şəxsi heyəti tərəfindən görülmüş ilkin tədbirlər və Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin hadisə yerinə cəlb olunmuş əməkdaşlarının operativliyi və peşəkarlığı nəticəsində yanğın qısa zamanda aradan qaldırılmışdır. Hadisə nəticəsində şəxsi heyət arasında 3 nəfər tüstünün təsirinə məruz qalmış, müvafiq tibbi yardım göstərildikdən sonra buraxılmışdır. Yanğın zamanı əsas korpusun dam örtüyünün 50 $m^2$-lik hissəsinə ziyan dəymişdir.

Bu barədə Trend-ə DSX-dən bildirilib.

*Qeyd edilib ki, yanğının baş verməsinə ilkin səbəb kimi elektrik xəttində qısa qapanmanın olduğu ehtimal edilir.*

## Türkiyədə "F-5" təlim qırıcısı qəzaya uğrayıb

Pilot katapult edərək sağ qalıb



**Türkiyə Silahlı Qüvvələrinin "Türk ulduzları"na məxsus "F-5" təlim qırıcısı Konyada həbsxana yaxınlığında qəzaya uğrayıb.**

"Report" xəbər verir ki, məlumatı Türkiyənin Milli Müdafiə Nazirliyi yayıb.

Məlumata görə, mühərriki dayanan təyyarə Konyanın Karatay rayonunun Tatlıcakdakı hərbi təlim bazasına düşüb. Hadisəyə səbəb olaraq təyyarənin mühərrik hissəsinə quş düşməsi göstərilir.

Pilot katapult edərək sağ qalıb.

## 1 nəfər vəfat edib

62 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 62 yeni yoluxma faktı qeydə alınıb, 37 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 824 574 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 814 298 nəfər müalicə olunaraq sağalıb, 9 984 nəfər vəfat edib, aktiv xəstə sayı 292 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 662, hazırkı dövrədək isə 7 385 915 test aparılıb.*



## Zahid Oruc parlamentdə təklif səsləndirdi

"Azərbaycan, Türkiyə və Ermənistan liderlərinin İrəvanda görüşü keçirilsin"

(səh.2)



## "Sağalıram, yenidən yazıb yaratmaq üçün gün sayıram"

Səbuhi Məmmədli:

"Möcüzə nəticəsində həkimlər həyatımı xilas etdilər"

(səh.4)

# Prezident Dağıstan Respublikasının rəhbərini qəbul edib

## Əziz Əliyevin vaxtilə iş otağında olan heykəltəraşlıq əsəri Azərbaycan Prezidentinə təqdim olunub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Dağıstan Respublikası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirib və bunun Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini deyib. Dövlət başçısı, eyni zamanda, bildirib ki, Azərbaycan-Rusiya əlaqələri 2022-ci ildə də uğurla inkişaf edib. Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin və səmərəli görüşlərin əhəmiyyətini vurğulayıb, eyni zamanda, bu yaxınlarda keçirilən növbəti Azərbaycan-Rusiya regionlararası Forumunun önəmini qeyd edib.

Dövlət başçısı əsrlər boyu xalqlarımız arasında tarixi əlaqələrin mövcud olduğunu vurğulayaraq müasir dövrdə də bu münasibətlərin möhkəmləndiyini məmnunluqla diqqətə çatdırıb. Bu baxımdan Prezident İlham Əliyev Sergey Məlikovun ölkəmizə səfərinin Azərbaycanla Dağıstan arasında konkret istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirib.

Xalqlarımızın qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən Sergey Məlikov digər xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlıların da Dağıstanda vahid ailə kimi yaşadıqlarını məmnunluqla qeyd edib. O, ölkəmizə səfəri zamanı keçiriləcək görüşlərin əməkdaşlığın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirib.

Dövlət başçısı Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Azərbaycan və Dağıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə Dağıstan Respublikasının rəhbərinin müşaviri Maqomed Səidoviç Qurbanova təltif olunduğu "Şöhrət" ordenini təqdim edib.

Sonra xatirə şəkilləri çəkdirilib.

Daha sonra Azərbaycan Prezidentinə görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin vaxtılə iş otağında olan heykəltəraşlıq əsəri təqdim edilib.

*Qeyd edək ki, Əziz Əliyev 1942-1948-ci illərdə Dağıstana rəhbərliyi dövründə digər Qafqaz xalqları kimi, Dağıstan xalqına qarşı da nəzərdə tutulmuş sürgünün qarşısını almışdı. Buna görə Dağıstan ağsaqqalları adından ona tərkində uşaq olan atlının əks olunduğu heykəltəraşlıq əsəri hədiyyə edilib. Bu əsər bundan sonra Prezident İlham Əliyevin iş otağında olacaq.*

# Azərbaycan Laçın dəhlizində nəzarət postu qurmaqda israrlıdır

## Hadisələrin inkişafı bunun reallaşmasına doğru yönəldilir



**"Rusiya sülhməramlı kontingentinin rəhbəri general Volkovun "Laçın dəhlizinin girişinə mini gömrük postu quraşdırılacaq" açıqlaması Azərbaycanın dəhlizə post quraşdırması demək deyil, postu ruslar qurur, lakin Bakının tələbi ilə..".**

Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, mümkündür ki, Bakı dəhlizdən qanunsuz daşımaların qarşısının alınması tələbini sülhməramlıların qarşısında qaldıranda onlar Volkovun məlum müsahibəsində dediyi kimi "texniki imkanlarımız yoxdur" bəhanəsini irəli sürürmüş: "Bundan çıxış yolu kimi Bakının tələbi və istəyi ilə rusların nəzarət edəcəyi mini gömrük postun qurulması razılığı əldə olunub. Bu razılaşmanın olması qanunsuz daşımaların qarşısının alınması demək deyil, ruslar bundan "nəticə əldə olunması" kimi istifadə edirlər. Hərçənd, dəhlizdə hələki post qura bilməyən Azərbaycanın bunu rusların əli ilə etməsi hadisələrin inkişafına təsir edə bilər. Bundan sonra rusların qanunsuz daşınmalar faktı qarşısında "texniki imkanlarımız zəifdir" bəhanəsi işləməyəcək. Digər yandan növbəti qanunsuz daşınma faktından sonra dəhlizdə Bakının öz postunu qurması zərurəti daha çox aktual olacaq. O zaman rusların bəhanə gətirmə şansı indiki qədər güclü olmayacaq. Proseslərdən belə nəticə çıxır. Azərbaycan Laçın dəhlizinə nəzarət-keçid postu qurmaq planında israrlıdır və hadisələrin inkişafı bunun reallaşmasına doğru yönəldilir".

**İsmayıl**

# İdeologiya çöküb

## İranda baş verənlər SSRİ-nin son dövrlərini xatırladır



**"İranda baş verənlər SSRİ-nin son dövrünü, hardasa 1986-87-ci illəri xatırladır". Bu barədə REaL Partiyasının sədr müavini Natiq Cəfərli deyib. Partiya təmsilçisi qeyd edib ki, əslində İran və SSRİ sistem, ideologiya, metodologiya olaraq bir-birinə çox yaxın ölkələrdir:**

"SSRİ millət, kimlik anlayışını unutdurub hamıdan "sovet adamı" düzəltmək, davranış qaydalarını, hətta geyim-gecimlərini, düşüncə tərzini dizayn-nəzarət etmək istədi. İmperiyanı qorumaq üçün kommunist, əslində cəlbedici olan "sol" ideologiyanı ifrat hala salıb, istismar etməyə çalışdı. Eyni ilə İran da müqəddəs dinimizi, inancı öz dövlət ideologiyasına xidmət etmək, fars imperiyasının inersiyasını qorumaq üçün istismar etdi. İnsanların davranış qaydalarına, geyim tərzinə, düşüncəsinə nəzarət etməyə başladı. İran rejimi də millət, etnik kimlik anlayışlarını "ümmətlə" əvəz edərək yeni insan tipi yaratmağa çalışdı".

*N.Cəfərli vurğulayıb ki, SSRİ-də 1985-86-cı illərdə "perestroyka" kimi anlayışlar yaranan kimi sistem çat verməyə başladı:* "Bütün qanlı əməllərlə imperiyanı qorumaq cəhdlərinə baxmayaraq, sistem çökdü. Bu gün İranda əgər sistemə qarşı etirazlar rejimi geri addım atmağa məcbur edirsə, bu da sonun başlanğıcı, sistemin çat verərək zəifləməsi deməkdir. Yəni SSRİ analogiyasına görə 1986-87-ci illərdir, 1990-91-ci illərə çox az qalıb...".

**İsmayıl**

**Əziz Əlibəyli:** "Bu zərurət yaxın zamanlarda cənub qonşumuzda hakimiyyət dəyişikliyinə və Azərbaycanla Türkiyəyə yeni rolların verilməsinə gətirib çıxaracağını düşünürəm"

# Regionda yeni dizayn inşa olunur

## Bəzi ölkələrin xəritədən silinməsi ehtimalı yüksəkdir



**"PKK terror təşkilatının əsas kökü İrandadır". Bunu Güney Azərbaycan Televiziyasının (GünazTV) rəhbəri Əhməd Obalı Sosial Tədqiqatlar Mərkəzinin (STM) keçirdiyi "İran yeni baxış bucağında" adlı tədbirdə deyib.**

O bildirib ki, Türkiyə İranın daxilində ciddi etnik dəyişikliyin yaranmasından narahatdır: "Amma türkiyəli siyasətçilər regional hadisələrin nə qədər sürətli olduğuna diqqət etməlidirlər. Bu gün PKK terror təşkilatının əsas kökü İrandadır. PKK yarandığı gündən İranla əlaqədə olub".

Ə.Obalının sözlərinə görə, PKK-nın İranda ayrıca qolu var: "Güney məsələsinin həlli Türkiyəyə qarşı kürd məsələsini də həll edə bilər. Güney Azərbaycan azad olarsa, Türkiyə ilə sərhəddə kürd fəaliyyəti ola bilməz".

O vurğulayıb ki, bir zaman xəyal etdiyimiz türk dünyası artıq reallaşır. Amma bu, ancaq Güney Azərbaycan sayəsində mümkün olacaq. Biz də Güney azərbaycanlı qardaşlarımızdan dəstək gözləyirik.

**Regionun yeni dizayna daxil olduğunu deyən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə söyləyib ki, bu yeni dizaynda bəzi ölkələrin xəritədən silinmə ehtimalı var:** "İranın daxilində nüvə partlayışı gözlənilləndir. Bu, böyük bir etnik qarşıdurma və yeni xəritənin ortaya çıxması ilə müşahidə edilə bilər. Ciddi məsələ isə qlobal ssenarinin ilmələrinin bizim coğrafiyada atılmasıdır. Vətən müharibəsinin gedişi və İranın davranışları da yeni konfiqurasiyanın təlatümlərlə müşayiət edildiyini göstərdi. Uzun illərdir ki, bölgəyə xas ssenarilərin icrası ilə bağlı mərkəzi hakimiyyətlərin sarsılması bu xüsusda vacib rola malikdir. Bu gün İranda oynanılan oyunların nəticələrinə yönəlik "PKK kartı", İran Kürdüstanı bölgəsi və regionda yeni ölkənin formalaşdırılmasına çalışılması kontekstində bizi də bəzi məsələlər narahat edir. Digər tərəfdən bölgədəki çox şeyi dəyişəcək gücdə olan Türkiyənin də ehtiyatlanmasına böyük zərurət var. Bu zərurət yaxın zamanlarda cənub qonşumuzda hakimiyyət dəyişikliyinə və Azərbaycanla Türkiyəyə yeni rolların verilməsinə gətirib çıxaracağını düşünürəm. Bu rolları biz öz qanımızla əldə etmişik. Bütün bunları qiymətləndirdikdə isə rəsmi Ankaranın digər ölkələrin iştirakı olmadan apardığı "Pəncə Qalxan" əməliyyatından başlamaq lazımdır. Bu əməliyyat, həqiqətən də, bölgədəki qüvvələrin balansını dəyişə bilər və əsas sirr də burada yatır".

**Nihat Müzəffər**

# Zahid Oruc parlamentdə təklif səsləndirdi

## "Azərbaycan, Türkiyə və Ermənistan liderlərinin İrəvanda görüşü keçirilsin"

"Danışıqları kənar müdaxilə və qəsdlərdən qorumağın ayrı yolu yoxdur"

**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti iclası keçirilib. İclasın gündəliyinə 48 məsələ daxil edilib. Deputatlar cari məsələlərlə bağlı çıxışlar ediblər, bir sıra problemləri gündəmə gətiriblər. Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib ki, son zamanlarda ölkəmizdə bəzi dərman vasitələrinin tapılmaması halları artıb. Deputat bildirib ki, bu həm pasiyentlər, həm də həkimlər üçün çətinliklər yaradır:**

"Problemin həlli üçün əvvəlcə səbəbləri dəqiqləşdirmək lazımdır. Görünən 3 səbəb var. Bunlardan 2-si beynəlxalq, 1-i isə ölkədaxili səbəbdir. Hər kəs problemin ciddiliyini anlayır, amma həllini tapmır. Pandemiyanın dünya iqtisadiyyatı üçün yaratmış olduğu sıxıntılar bu gün də hiss olunur. Dünya iqtisadiyyatında istehsal azalıb, logistika xərcləri çox artıb. Beləliklə, dünyada qiymət artımı və əlçatanlıq çətinləşib. Digər səbəb isə Ukrayna-Rusiya müharibəsidir, bu, həmin ölkələrdən dərman idxalına mane olur. Bu gün dərman qiymətləri gün keçdikcə yüksəlməkdədir. Ölkəmizdə dərmanların keyfiyyətini və kəmiyyətini tənzimləyəcək qurumlar Tarif Şurası və Səhiyyə Nazirliyidir. Bu gün dünyada gedən reallığa cavab verən mexanizm ölkəmizdə yoxdur. Ölkədə həyata keçirilən səhiyyə islahatları dərmanlarla bağlı yeni mexanizm yaradılmasını zəruri edir".

**Millət vəkili Fəzail Ağamalı deyib ki, İran molla rejimi Güneydəki soydaşlarımıza qarşı repressiyalar törədir, onları həbs və edama məhkum edir. Deputat hesab edir ki, Azərbaycanda insan hüquqları ilə məşğul olan QHT-lər İran molla rejiminin bu pozuntularını ən yüksək səviyyədə qaldırmalıdır:** "Ölkəmizdə çoxsaylı qeyri-hökumət təşkilatları var. Onlar İranda soydaşlarımıza qarşı edilən təzyiqləri, repressiyanı qabartmalı, beynəlxalq arenada diqqətləri bu məsələnin üzərinə çəkməlidirlər. Əfsuslar olsun ki, bu məsələdə fəaliyyət gözə dəymir".

**Deputat Ceyhun Məmmədov deyib ki, İranın xəbər agentlikləri, televiziya kanalları, xüsusilə "Səhər" kanalı Azərbaycana və Azərbaycan Prezidentinin ünvanına hədyanlar yağdırmağa davam edir:** "Eləcə də Azərbaycanın bir sıra bölgələrində İran radioları Azərbaycanın efir məkanına müdaxilələr edirlər. Burada söhbət təkcə sərhəd bölgələrindən getmir. Son vaxtlar İranın sosial şəbəkələrdə Azərbaycanda yaşayan müxtəlif xalqların adından istifadə edərək Azərbaycanda gərginlik yaratmaq cəhdləri açıq müşahidə olunur. Bu məqsədlə həmin xalqların adından müxtəlif səhifələr yaradılaraq təxribat xarakterli videolar paylaşılır. Bu baxımdan "Səhər" kanalının peyk vasitəsilə yayımının, eləcə də İran radiolarının ölkəmizin efir məkanına müdaxiləsinin qarşısının alınması imkanları ciddi nəzərdən keçirilməlidir. Uzun illərdir bu barədə müzakirələr getsə də, hələ də konkret nəticə yoxdur. Bununla yanaşı hesab edirəm ki, İranın Azərbaycanda uzun illər ərzində formalaşdırdığı şəbəkənin və həmin şəbəkənin bütün üzvlərinin zərərsizləşdirilməsi istiqamətində də ciddi addımlar atılmalıdır. Eyni zamanda İranda yaşayan soydaşlarımıza ünvanlanmış verilişlərin hazırlanması və ya televiziya, radio kanalının açılması məsələsi xüsusi diqqətdə saxlanılmalıdır". Deputat təklif edib ki, Azərbaycan həqiqətlərinin dünyada təbliği, erməni vəhşiliyinin ifşası məqsədilə müxtəlif dillərdə, o cümlədən ərəb və fars dillərində verilişlərin yayımlanması istiqamətində də ciddi düşünülsün: "Bu gün dünyanın əksər ölkələri bunu edirlər".



**Deputat Elman Nəsirov bildirib ki, torpaqlarımızın işğal altında olduğu dövrdə münaqişənin dondurulması siyasəti həyata keçirilirdi. Parlament üzvü qeyd edib ki, indi də postmünaqişə dövründə biz dondurulma siyasətinin həyata keçirilməsinə cəhdləri görürük**: "İndiyə kimi Ermənistan və Azərbaycan arasında hansı razılıqlar əldə edilibsə, onların yerinə yetirilməsinin dondurulması prosesi getməkdədir. İki tərəf bu razılaşmaları həyata keçirsəydi, bəlkə də, bu proses çoxdan həllini tapmışdı. Hazırda 5-7 vasitəçinin prosesi idarə etmək istədiyini görürük. Diplomatiya tarixi onu göstərir ki, bu tip münaqişələrin həlli üçün ortada sülh müqaviləsinin layihəsi olmalıdır".

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycan, Türkiyə və Ermənistan liderlərinin İrəvanda görüşünün keçirilməsini təklif edib:** "Qələbədən sonra Moskva, Brüssel, Soçi və Praqada aparılan danışıqlar göstərdi ki, moderatorlara sülh yox, Qafqazlarda hökmranlıq gərəkdir. Ona görə də Ermənistanı İran, Rusiya, Fransa və Amerikanın əlindən almaq Şuşanı azad etmək qədər mühüm vəzifədir. Günün birində Co Baydenlə İbrahim Rəisi görüşüb Qarabağda vasitəçilikdən danışsalar, təəccüblənməyin. Ukrayna torpaqlarının müdafiəsinə 93 milyard avro silah və maliyyə yardımı ayıran, Krımı qaytarmağı tələb edən NATO üzvlərinin Qarabağa müstəqillik çağırışı ərazi bütövlüyünə və hüquqa həqarətdir. Onlara baxanda Paşinyan dost ölkənin rəhbəri kimi görünür. Adam 4 ildir, keçmiş prezidentlərdən xalqımızın intiqamını alır və işğala görə utanır, üsyan edir ki, ikinci dövlət avantürası "ermənisiz Ermənistan" deməkdir. İrəvan parlamentində Azərbaycanla bağlı ədalətli və heç vaxt görünməmiş bəyanatlar səslənir. Məsələn, "beynəlxalq ictimaiyyət bizə kömək etməyəcək, 2020-ci ilin səhvlərini təkrarlamamalıyıq, Qarabağ məsələsində plankanı aşağı salmalıyıq, əks halda onlara ümid bəsləməməyi xahiş edirlər, biz sənədi imzalayacağıq, çoxları bizi söyəcək, satqın adlandıracaq, lakin nəticədə davamlı sülh əldə edəcəyik" sözlərini xatırlatmaq kifayətdir. Belə şəraitdə xaricdən siyasi hücumlara ən yaxşı cavab Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İrəvanda üçlü sülh görüşüdür. Danışıqları kənar müdaxilə və qəsdlərdən qorumağın ayrı yolu yoxdur. Gedib Hindistandan raketlər alan dövləti inandırmalıyıq ki, sizi strateji silahlar yox, Azərbaycan və Türkiyənin qarantiyası xilas edə bilər". Zahid Oruc qeyd edib ki, 6 oktyabrda Praqada Ərdoğan-Paşinyan görüşü 100 ilin düşmənçiliyinə, qorxu və nifrətinə son qoymaq üçün ilk sınaq olub: "Praqadan, yaxud Soçidən yaxın və təhlükəsiz şəhərlər Bakı, İrəvan və Ankaradır. Ərdoğan və Əliyevin üç ölkənin paytaxtında Paşinyanla görüşləri yeganə yoldur. Xalqlar əbədi müharibə və düşmənçilikdə yaşaya bilməz. Biz savaşla Şuşanı, sülhlə İrəvanı qazanacağıq".

**İsmayıl**



# Türkiyə qoşunları Azərbaycanda qalacaq

## "Təhdid haradan gəlir-gəlsin, tək ordu, tək güc və tək yumruq olarıq"

### "Ankara-Bakı birgə genişmiqyaslı hərbi təlimləri təkcə İrana deyil, Rusiyaya da mesajdır"

**Azərbaycan-Türkiyə birgə taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib. Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri cənab Hulusi Akar və digər rəsmilər "Qardaş yumruğu" təlimini izləmək üçün təlim poliqonuna gəliblər.**

Məruzə edilib ki, ssenariyə uyğun olaraq Azərbaycan Ordusunun bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə qarşılıqlı əlaqədə müxtəlif təlim döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirirlər. Sonda bütün istiqamətlər üzrə icra olunan tapşırıqlar videobağlantı vasitəsilə qoşulan komandir heyəti ilə birgə təhlil edilib.

Keçirilən birgə təlimi yüksək qiymətləndirən müdafiə nazirləri təlimin daha da keyfiyyətli təşkili və şəxsi heyətin peşəkarlıq qabiliyyətinin artırılması ilə bağlı müvafiq tövsiyələrini verib.

**"Qardaş yumruğu" təlimləri Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür"**

Prezident İlham Əliyev təlimin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə telefon zəngi ilə şəxsi heyəti təbrik edib. Dövlət başçısı vurğulayıb ki, bu təlimlərin adı "Qardaş yumruğu"dur: "Bu, Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür. Birliyimiz sarsılmazdır, əbədidir. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı! Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təşkil etdiyi hərbi təlimlərin uğurla başa çatması münasibətilə təbrik edirəm".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da təlimdə iştirak edən şəxsi heyəti təbrik edib. O, "bir millət, iki dövlət" anlayışı ilə keçirilən təlimin uğurla həyata keçirildiyini bildirib. Heç kimin ayıra bilməyəcəyi birliyimizin gələcəkdə də davam etdiriləcəyini deyib: "Azərbaycanda birgə hərbi təlimlər keçiririk. Bunun məqsədi istənilməyən, amma yaşanan sıxıntıları birlikdə aradan qaldırmaqdır. Bu hərbi təlimlər bölgədə fərqli prosesləri canlandırır və Azərbaycan-Türkiyə qardaşlığını "Bir millət, iki dövlət" fəlsəfəsi ilə eyniləşdirir. Dostlarımızı artıracağıq, düşmənlərimiz yerini biləcək. Bizə yönəlmiş təhlükələr gördükdə, heç kimin gözləmədiyi qələbələri əldə etmək qabiliyyətimiz var". Türkiyə liderinin sözlərinə görə, oxşar addımlar bundan sonra da atılacaq: "Türkiyə Qarabağda azərbaycanlı qardaşları ilə birlikdə oldu. Türkiyə qardaş ölkələrə dəstəyini bundan sonra daha da artıracaq".

Türkiyənin milli müdafiə naziri Hulusi Akar bildirib ki, Azərbaycana qarşı təhdid haradan gəlir-gəlsin, tək ordu, tək güc və tək yumruq olarıq. Hulusi Akar Türkiyə-Ermənistan və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasını səmimi şəkildə arzuladıqlarını vurğulayıb: "Hardan və kimdən gəlməsindən asılı olmayaraq, Türkiyə və Azərbaycana qarşı təhlükə və ya təxribatın hər iki ölkəyə qarşı olduğunu qəbul edirik. Dostumuzu birlikdə dost görür, düşmənimizi də düşmən bilirik. Buna kimsənin şübhəsi olmasın".

**"Birgə təlimlər Türkiyə ilə Azərbaycanın gücünü və qətiyyətini açıq şəkildə göstərdi"**

Akar deyib ki, həssas dövrdə ölkələrimizin və millətimizin təhlükəsizliyinin təmin edilməsi ancaq və ancaq aktiv və etibarlı bir orduya sahib olmaqla mümkündür: "Türkiyə Silahlı Qüvvələri ilə dost və qardaş Azərbaycan Ordusunun birgə həyata keçirdiyi bu təlimi son dərəcə anlamlı və faydalı hesab edirik". Nazir qeyd edib ki, təlim iki ölkə Silahlı Qüvvələrinin, Türkiyə və Azərbaycanın haqq və mənfəətlərini qorumaqdakı gücünü və qətiyyətini ən açıq şəkildə göstərib.

**"Türkiyə ilə birgə fars-molla rejiminin şər siyasətinə qarşı sipər çəkməyə məcburuq"**

Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov bildirib ki, Şuşa Bəyannaməsinin şərtlərinə uyğun olaraq Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən "Qardaş yumruğu" birgə təlimlərinin əsas məqsədi İrana mesaj və ya güc nümayişi deyil. Amma İran tərəfi bunu özünə qarşı ünvanlanmış mesaj kimi dəyərləndirirsə, lap yaxşı, qoy dəyərləndirsin: "İran bundan sonra anti-Azərbaycan siyasətinə son qoysun, ölkəmizə qarşı münasibətinə çəki-düzən versin.

Azərbaycan və Türkiyə birgə hərbi təlimlər keçirməyə məcburdur. Bizi buna məcbur edən ölkələrdən biri də İran adlandırılan şər yuvasıdır. İran özünün aqressiv, qeyri-dost siyasəti ilə, davamlı təxribatları ilə bölgədə sülh və sabitliyə daim təhdid yaradır. Bu ölkə gah sərhədlərimiz boyunca ard-arda hərbi təlimlər keçirir, gah diplomatların, deputatların və SEPAH generallarının ağzıyla bizi hədələyir, gah da Qarabağa diversantlar göndərir, Xankəndidəki erməni separatçılarına bu və ya digər formada dəstək verir. Bütün bunlar onu göstərir ki, İranın normal qonşuluq siyasəti yürütmək niyyəti yoxdur. Ona görə də biz qardaş Türkiyə ilə birgə səylər əsasında fars-molla rejiminin şər siyasətinə qarşı sipər çəkməyə məcburuq. Bu baxımdan, iki ölkənin birgə hərbi təlimləri bilavasitə Cənubi Qafqazda sülh və sabitliyin qorunmasına xidmət edir. Mollaları ağıllandırmağın, onları reallıq hissinə qaytarmağın başqa yolu yoxdur. Sərhədlərimizdə təlim keçirən, Arazın üzərindən panton körpü salan bir ölkəyə eyni qayda ilə cavab verdik ki, rəsmi Tehran həddini bilsin və bundan sonra bir daha ölkəmizə qarşı məkrli addımlar atmağa cəhd göstərməsin. Ermənistanı "Dəmir yumruq"la necə əzmişiksə, İranı da "Qardaş yumruğ"u ilə haqq yoluna gətirə bilərik!".

**"Vaşinqton təlimlərə dəstək verir"**

**Politoloq Məhəmməd Əsədullazadə də deyib ki, Türkiyə-Azərbaycan birgə hərbi təlimlərindən Tehran rejimi nəticə çıxarmalıdır:** "Türkiyə ilə ilk dəfə bu miqyasda hərbi təlim keçirilir. Ankara-Bakı birgə genişmiqyaslı hərbi təlimləri təkcə İrana deyil, Rusiyaya da mesajdır. Moskva da bu təlimlərdən nəticə çıxarmalıdır. Çünki, Qarabağda Rusiya sülhməramlı qüvvələrinin "fəaliyyəti" Azərbaycanın təhlükəsizliyini təhdid edir. Bu təlimləri NATO-Azərbaycan təlimləri kimi də xarakterizə etmək olar. Vaşinqton təlimlərə dəstək verir. Bu təlimlərdən sonra Türkiyə qoşunları müəyyən müddətdə Azərbaycanda qalacaq".

**İsmayıl Qocayev**

# İran daha əvvəlki ölkə olmayacaq

## Millət vəkilləri Əhməd Obalı ilə Güney Azərbaycandakı son durumu müzakirə etdilər



**Sosial Tədqiqatlar Mərkəzində Güney Azərbaycanın milli fəalı, Güney Azərbaycan Televiziyasının (GünazTV) rəhbəri Əhməd Obalı ilə görüş keçirilib. Görüşdə Milli Məclisin deputatları ilə milli fəal Əhməd Obalı arasında Güney Azərbaycandakı son vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. Əhməd Obalı İran rejiminin Azərbaycan dili ilə bağlı qadağa məsələsini diqqətə çatdıraraq bunun ciddi problem olduğunu qeyd edib:**

"İran rejimi farsçılıq ideologiyasının üzərində qurulmuş dövlətdir. İranda fars dilini bilmək yetərliliyi ilə bağlı qanun qəbul edilib. Yəni İranda orta məktəbə gedən uşaq mütləq fars dilini bilməlidir. Bilməzsə, onlar özəl məktəblərə göndərilir. Hansı ki bu məktəbə getmək, az qala, təhqir kimi bir şeydir". Milli fəal Prezident İlham Əliyevin Cənubi Azərbaycanla bağlı dediyi fikirlərə toxunub: "Azərbaycan Prezidenti təkcə Qarabağı azad edən fateh yox, eyni zamanda Güney Azərbaycandakı vətəndaşların da taleyi ilə maraqlanan, diqqət göstərən prezidentdir. Bizlər üçün sizin timsalınızda azərbaycanlı siyasətçilərin güneylə bağlı müzakirə və fikirləri çox əhəmiyyətli və sevindiricidir". Ə.Obalı Urmiya gölünün qurudulmasını İran hakimiyyətinin siyasəti kimi qiymətləndirib: "Urmiya gölünün qurudulması molla rejiminin siyasətinin bir parçasıdır. İran rejimi farsçılığın üzərində qurulmuş dövlətdir. İranda fars dilini bilməyin yetərliliyi ilə bağlı qanun qəbul edilib. Yəni İranda orta məktəbə gedən uşaq mütləq fars dilini bilməlidir. Bilməzsə, onlar özəl məktəblərə göndərilir. Bu məktəblərə getmək də, az qala, təhqir kimi bir şeydir".

**Deputat Ziyafət Əsgərov isə İran-Ermənistan münasibətlərinə toxunub:** "Baxmayaraq ki, dəfələrlə bəyanatlarda dostluq-qardaşlıq fikirləri səsləndirilir, amma biz bu illər ərzində münasibətdə dostluq-qardaşlıq amalı görmədik. Ən nəhayət, İranın Ermənistanın sərhədi ilə bağlı səsləndirdiyi "qırmızı xətt" məsələsi sözügedən münasibəti aydın formada izah edir".

Çıxış edən deputat Cavanşir Paşazadə İranda gedən prosesləri Güney Azərbaycanın müstəqil olması üçün yaranmış şərait kimi qiymətləndirib.

**Milli Məclisin Mədəniyyət Komitəsinin sədr müavini Fazil Mustafa İranı qonşuluq münasibətlərini pozmaqda günahlandırıb:** "İran qonşu dövlət kimi qonşuluq münasibətlərinə əməl etmədi. Əksinə, bizə düşmən olan dövlətə davamlı dəstək oldu. İranda indi baş verənlər insanların hüquq mübarizəsidir. Və ən əsası, Cənubi Azərbaycandakı əhalinin çox böyük qismi, təəssüf ki, savadsız əhalidir. Bunu İran rejimi edib, doğrudur, amma bugünkü vəziyyətdə bu, sözügedən mübarizənin əleyhinə olan məsələdir". Deputat Azərbaycanın daxilindəki İranmeyilli qüvvələrə diqqət çəkib: "Bizdə İranın cəhalət kolonu var. Bəli, biz güclü dövlətik, lakin bizdə, eyni zamanda İran tərəfindən hazırlanmış cəhalət kolonu var. Bu isə hər zaman təhlükə deməkdir". F.Mustafa Azərbaycanın hazırda daxili və xarici problemləri məsələsini vurğulayıb: "Azərbaycan güclü dövlətdir, bu, həqiqətdir. Lakin bizim hazırda tam sağalmamış yaramız var".

**Millət vəkili Zahid Oruc Azərbaycanın qələbəsinə göstərilən münasibətdə dövlətlərin mövqeyini qeyd edib:** "Mənim üçün 44 günlük müharibə hazırda başqa müstəvilərdə davam edir. Bizim qələbəmiz onlarla dövləti narahat edir. Təəssüf ki, bu dövlətlərdən biri də İrandır". Deputat İrandakı hazırkı vəziyyətin bu dövlətin gələcəyinə təsir edəcəyini qeyd edib: "İran daha əvvəlki İran olmayacaq. Bu, dəqiqdir. Xalq savadsızdır deyə, savaş elan eləmək olmaz fikri, hesab edirəm ki, yanlışdır. Bunu bizə tarix göstərib, tarix sübut edib".

Çıxışlar bitdikdən sonra təkliflər ətrafında fikir mübadiləsi davam etdirilib.

**İsmayıl**

# Millət vəkilləri qanundakı boşluqları tənqid etdilər

## Partiya üzvlərindən identifikasiya nömrələrinin tələb olunması doğru deyil

### "Milli Məclisdə təmsil oluna bilməyən partiyalar arasında bölüşdürüləcək vəsaitin artırılması siyasi partiyaların seçkilərdə iştirakını təşviq edə bilər"

**Milli Məclisin dünənki iclasında deputatlar "Siyasi partiyalar haqqında" qanun layihəsinə dəyişikliklər təklif ediblər. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev partiya üzvlərinin fərdi identifikasiya nömrələrinə dair tələbin ləğvini təklif edib.**

Deputat bildirib ki, artıq partiyada göstəriş verilib ki, qanun layihəsinin 20-ci maddəsinə uyğun olaraq üzvlərin fərdi identifikasiya nömrələri alınsın. Amma bu informasiya gizli, konfidensial informasiyadır. Q.Həsənquliyev bildirib ki, bu, partiya üzvləri arasında narazılıq yaradır: "Fərdi identifikasiya nömrəsi ilə hətta bir vətəndaş evdən oturub kredit götürə bilər. Bu konfidensial informasiyanı qorumaq üçün tələblər müəyyənləşib, Nazirlər Kabineti bunu təsdiqləyib. Partiyaların heç birinin o imkanı yoxdur ki, bu informasiyanın konfidensiallığını qoruya bilsin. Məncə, sadəcə partiya üzvlərinin adı soyadı və şəxsiyyət vəsiqəsinin nömrəsini yazmaq kifayət edir. Çünki fərdi identifikasiya nömrəsinin şəxsdən alınması qəbul etdiyimiz qanunlara da ziddir".

**"Qanunun əleyhinə bəyanata imza atanlar arasında tanıdığım hüquqşünaslar da var"**

**Millət vəkili Fazil Mustafa "Siyasi partiyalar haqqında" qanun layihəsinin Venesiya Komissiyasına göndərilməsini istəyənləri qınayıb. Deputat qanunun əleyhinə imzalanan bəyanata təəccüblə baxdığını deyib:** "Həmin şəxslər istəyir ki, qanun layihəsi Venesiya Komissiyasına göndərilsin, orada baxılsın. Bu cür yanaşmanı qınayıram. Hər bir məsələ burada həll olunmalıdır. Bu, bilirsiniz nəyə oxşayır? 44 günlük zəfərdən sonra prosesi ATƏT-in həll etməsini istəməyə bənzəyir. Sanki siyasi təşəbbüsləri hüquqi müstəviyə daşımaq istəyirlər. Bunu qəbul etmirəm. Venesiya Komissiyası qanuna niyə baxmalıdır? Müzakirələr zamanı bütün siyasi partiya sədrləri dəvət olundu, fikirləri, təklifləri öyrənildi. Bu qanunun əleyhinə bəyanata imza atanlar arasında tanıdığım hüquqşünaslar da var. Bu, çox məyusedicidir, siyasətdə olan proseslərin hüquqa da sirayət etməsini göstərir".

**Deputat, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı deyib ki, 1992-1993-cü ildə qəbul edilmiş qanunların dəyişdirilməsinə qısqanclıq duyan adamlardan biri o olub:** "Çünki o vaxt o qanunları çox çətinliklə qəbul etmişdik. Ancaq siyasi mühit artıq dəyişib, bu qanunun qəbuluna normal baxmaq lazımdır. Siyasi partiyanı siyasi dərnəyə çevirmək təşəbbüsləri çoxdur. Azərbaycanda partiyanın adı var, üzvü yoxdur, partiya var, sədri yoxdur. Ona görə də bu qanunun qəbuluna çox müsbət yanaşmaq lazımdır".

**"Qanun real siyasi partiyaların daha çox görünməsinə imkan yaradır"**

**Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat Razi Nurullayev deyib ki, qanunu ilk gündən dəstəkləyib.** Bütün iclaslarda, dinləmələrdə, komitə iclaslarında çıxış edib, dövlətçilik mövqeyindən yanaşaraq müsbət münasibətimi bildirib. Çünki bu qanunun ölkəmizdə siyasi proseslərin inkişafına təkan verəcəyinə və demokratik proseslərin daha da dərinləşməsinə zəmin yaradacağına inanır: "Həm də bu qanun real siyasi partiyaların daha çox görünməsinə imkan yaradır. Sözçülüklə məşğul



Siyasi partiyalar haqqında qanundakı təzadlar aradan qaldırılmalıdır

olanlar isə qoy partiya quruculuğu və yeni üzvlərin cəlbi barədə düşünsünlər. Üzv toplaya bilməyən partiya yarpaqları tökülmüş, ömrünün payızını yaşayan qüvvə deməkdir". R.Nurullayev qeyd edib ki, bəzi təzadlı və sual doğuran məqamlar var: "Biz bu qanundan sonra 47 qanun layihəsinə "Açıq hökumət"in təşviqinə dair dəyişiklikləri müzakirə edəcəyik və nəzərdə tutulur ki, elektron informasiya resurslarından əldə edilən məlumatları aidiyyəti dövlət qurumu o dövlət qurumundan alır. Bu qanunun tələbini həm də siyasi partiyaların reyestr məsələsində nəzərə almaq lazımdır və bunun detallarını adını çəkdiyim həmkarlarım Qüdrət Həsənquliyev və Fazil Mustafa dedi. Hikmət müəllim də dedi. Qanunun 6.4 maddəsində deyilir ki, siyasi partiya üzvlərinin reyestrində baş vermiş sonrakı dəyişikliklər barədə ildə bir dəfə yanvar ayının 15-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana məlumat təqdim edir. Qanunun 7.2.2 maddəsində dövlət elektron informasiya ehtiyatlarından istifadə etməklə siyasi partiya üzvlərinin reyestrində olan məlumatları ildə azı iki dəfə nəzərdən keçirir. Bu maddələrdə olan təzadları aradan qaldırmaq lazımdır. Əgər siyasi partiya ildə bir dəfə reyestrə dəyişikliyi təqdim edirsə, müvafiq icra qurumu ildə iki dəfə hansı məlumatları yoxlayacaq? Bir də hörmətli Kamilə xanımın siyasi partiya üzvünün "tam fəaliyyət qabiliyyətli" olması barədə verdiyi sual məntiqlidir və yəqin ki, cavab olacaq".

**"Partiyalar ƏDV-dən azad olunsun"**

**Deputat Vüqar Bayramov bildirib ki, "Siyasi partiyalar haqqında" qanunun qəbulu islahatların inklüzivliyinin genişləndirilməsinə və siyasi sferada əməkdaşlıq platformasının inkişafına xidmət edəcək:** "Plenar iclasadək layihəyə 70 düzəlişin edilməsi də demokratik müzakirə mühitindən xəbər verir. Partiyaların sadəcə mənfəət vergisindən deyil, eləcə də ƏDV-dən azad olunmasını təklif edirəm". Deputat, eyni zamanda seçkilərdə eitbarlı səs qazanmış, ancaq Milli Məclisdə təmsil oluna bilməyən partiyalar arasında bölüşdürüləcək vəsaitin artırılmasını vacib sayıb: "2.5 faizlik yardım hissəsinin artırılması siyasi partiyaların seçkilərdə iştirakını təşviq edə bilər. Bu baxımdan həmin rəqəmə baxılıb artırılması məqsədəuyğun olardı".

**"Bu məsələ də yumşalsa, ağzıgöyçəklərin deməyə sözü qalmayacaq"**

**Deputat Naqif Həmzəyev deyib ki, qanun layihəsindən bəlli olur ki, 50 nəfər tərəfindən siyasi partiya təsis edilir:** "Başqa bir maddədə göstərir ki, siyasi partiya qeydiyyata alınana qədər siyasi fəaliyyətlə məşğul olmaq qadağandır. Bu zaman 50 nəfər 5000 üzvü necə toplayacaq?! Məncə, bu məsələdə yumşalma olsa, ağzıgöyçəklərin də deməyə heç bir sözü qalmayacaq".

Deputat Cavid Osmanov təsisçilərin 20 ilə qədər Azərbaycanda yaşaması şərtinin layihəyə yenidən daxil edilməsini təklif edib: "Hansısa formada bu məsələyə baxılmasını xahiş edirəm".

**İsmayıl Qocayev**



# Bakı sülh sazişi ilə bağlı şərtlərini irəli sürüb

## Şarl Mişelin iştirakı ilə üçlü görüş ilin sonuna qədər Brüsseldə reallaşa bilər

**Ötən gün Moskvada Azərbaycan və Rusiya xarici işlər nazirləri - Ceyhun Bayramov və Sergey Lavrov arasında görüş keçirildi. XİN rəhbərlərinin görüşündə ikitərəfli əməkdaşlığın vəziyyəti və perspektivlərinin müzakirəsi, həmçinin regional və beynəlxalq gündəliyin ən aktual aspektləri, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması məsələləri üzrə fikir mübadiləsi aparıldı.**

Eyni zamanda xarici işlər nazirləri 2023-2024-cü il üçün XİN-lərarası Məsləhətləşmələr Planı imzaladı. Azərbaycan XİN başçısı C.Bayramov rəsmi Bakının mövqeyini, Ermənistan hökumətinin pozucu yanaşmasını növbəti dəfə dilə gətirib. Rusiyanın baş diplomatı isə Moskvanın sülhdə maraqlı olduğunu, bu istiqamətdə əlindən gələni etdiyini vurğulayıb. Lavrov Azərbaycanın tərəfdaş və müttəfiq olduğunu söyləyib.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Rusiya Azərbaycanın müttəfiqidirsə, Qarabağdakı erməni separatçılarını tərksilah etməlidir. Ekspert bildirib ki, Rusiyanın Qarabağdakı hərbi kontingenti erməni separatçıları ilə əməkdaşlığı genişləndirir:** ”Digər tərəfdən Rusiya Müdafiə Nazirliyinin Qarabağdakı məntəqələri erməni dilində adlandırması Azərbaycanda böyük etiraz yaradıb. Rusiya Ermənistanla Qarabağı birləşdirən yoldan xarici ölkə vətəndaşlarının keçidinə də şərait yaradıb. Bu, Azərbaycan qanunlarına ziddir. İran kəşfiyyat strukturlarının nümayəndələri Ermənistandan Qarabağa keçir və rusiyalı hərbçilər buna şərait yaradırlar. Qarabağdakı Rusiya hərbi kontingentində xidmət edən rusiyalı hərbçilər Qarabağın Azərbaycana aid olmadığını güman edirlər. Bunu Ermənistanla Qarabağı birləşdirən yolda xidmət edən rusiyalı hərbçilərin orada azərbaycanlı jurnalistlərin suallarına verdikləri cavablarından da anlamaq olar. Qarabağdakı rusiyalı hərbçilərin geyimlərində və hərbi texnikada ”Z” işarəsi Ukraynada işğalçı müharibədə istifadə olunur. Bu işarənin Qarabağda da istifadə olunması Azərbaycan cəmiyyətində narazılıq doğurub. Eyni zamanda Rusiyanın Ukraynada apardığı işğalçı müharibə Azərbaycan cəmiyyətində neqativ qarşılanır. Bütün bunlara görə ”Rusiya Azərbaycanın müttəfiqidir” fikri inandırıcı deyil.

Buna baxmayaraq, müxtəlif səbəblərdən rəsmi Bakı Moskva ilə müxtəlif mövzuları müzakirə etmək məcburiyyətindədir. Ceyhun Bayramov və Sergey Lavrov arasında dekabrın 5-də keçirilən görüşün yekunlarına əsasən, Azərbaycan və Rusiya arasında 2023-2024-cü illər üzrə XİN-lərarası məsləhətləşmələr planı imzalandı. Bundan başqa, Azərbaycan və Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunmuş poçt markasının təqdimetmə mərasimi keçirildi. Görüşdən sonra keçirilən ortaq mətbuat konfransında Ceyhun Bayramov Azərbaycanın işğaldan azad edilmiş ərazilərin bərpasında Rusiya şirkətlərinin iştirakını alqışladığını bildirdi. Bu il ərzində işğaldan azad edilən ərazilərə Rusiya biznes nümayəndə heyətlərinin missiyaları həyata keçirilib. Ceyhun Baymarov mətbuat konfransında ”Şimal-Cənub” layihəsinin də müzakirə olunduğunu bildirdi. Ceyhun Bayramov bu layihənin və tranzit marşrutunun potensialının böyük olduğunu vurğulasa da, İran-Azərbaycan münasibətlərindəki artan gərginlik ”Şimal-Cənub” layihəsinin yerinə yetirilməsində suallar yaradır. İki ölkə arasında siyasi münasibətlər gərgindirsə, həmin iki ölkənin ortaq layihələr reallaşdırması çətinləşir. Buna görədir ki, İran rəsmiləri son zamanlar ”Şimal-Cənub” xəttinin Ermənistandan keçməsi ilə bağlı fikirlər söyləyirlər. Halbuki bunun praktik zəmində reallaşması problematikdir. Ermənistandan tranzit yolların çəkilməsi üçün milyardlarla dollar xərclənməlidir, həm də bu, böyük zaman tələb edir. Azərbaycanda isə yollar hazır vəziyyətdədir. Buna baxmayaraq, ”Şimal-Cənub” layihəsinin tam gücüylə işləməsi üçün İran-Azərbaycan münasibətlərindəki gərginliyin azalmasını gözləmək lazım gələcək. Bu gərginlik səbəbindən Lavrovun səsləndirdiyi ”3+3” formatında görüşün təşkili də çətindir.

Ceyhun Bayramovla Sergey Lavrovun müzakirə etdiyi əsas mövzu bölgədə sülhün yaradılması ətrafında oldu”.

Analitik qeyd edib ki, Lavrov Azərbaycanın bir sıra dövlət strukturlarının sülhməramlı qüvvələrin müvəqqəti yerləşdirildiyi ərazidə ekoloji vəziyyəti araşdırmaq üçün sülhməramlı kontingentə müraciəti mövzusuna toxundu: ”Böyük ehtimalla bu mövzunun müzakirəsini Ceyhun Bayramov təklif edib. Çünki Azərbaycan Qarabağda həm yolu, həm də ermənilərin yaşadıqları məntəqələri nəzarətə götürmək üçün indidən çalışmalara başlamalı və bölgədəki rusiyalı hərbçilər buna mane olmamalıdırlar. Lavrovun bu məsələyə münasibəti belə oldu ki, Azərbaycanın dövlət strukturları Qarabağda Rusiyanın sülhməramlı kontingentinin iştirakı ilə iş aparır və guya, rusiyalı hərbçilər bununla fəal məşğul olurlar. Bu, ümumi cavabdır. Lavrov həqiqətən Azərbaycanı Rusiyanın ”müttəfiqi” saysaydı, belə deməliydi: ”Qarabağ Azərbaycan ərazisidir və Azərbaycan dövlət strukturlarının orada araşdırma aparmaq hüququ var, rusiyalı hərbçilər onlarla əməkdaşlıq edəcək”.

**E.Şahinoğlu vurğulayıb ki, Ceyhun Bayramovun mətbuat konfransında ”Azərbaycan Qarabağ ermənilərinin digər vətəndaşlarla eyni hüquqlara malik olacağına təminat verir” cümləsi Lavrova növbəti mesaj idi**: ”Rəsmi Bakı bölgəyə heç bir status verməyəcək və bu mövzunu heç kimlə müzakirə etməyəcək.

Üçüncüsü, Sergey Lavrov tərəflərin sülh müqaviləsinin Almatı bəyannaməsinə əsaslanmasına razı olmasının yekun işi yüngülləşdirəcəyini bildirdi: ”Bu təklif bu ilin əvvəlində tərəflərə təqdim olunub. Praqada tərəflər sülh müqaviləsinin Almatı bəyannaməsi əsasında imzalanması barədə razılığa gəliblər. Tərəflər buna razıdırlar. Bu isə sülh müqaviləsi ilə bağlı vəzifənin həllini yüngülləşdirir”. Ceyhun Bayramov buna cavab olaraq bu ilin sonuna kimi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqların üçüncü mərhələsinin keçirilməsinin mümkünlüyünü bildirib. Bu o deməkdir ki, ilin sonuna qədər Azərbaycan və Ermənistan liderlərinin görüşmə ehtimalı böyükdür. Ermənistanın Baş naziri Nikol Paşinyan ”Fransa Prezidenti Emmanuel Makron da iştirak etsin” israrından imtina etsə, Avropa İttifaqının rəhbəri Şarl Mişelin iştirakı ilə üçlü görüş ilin sonuna qədər Brüsseldə reallaşa bilər. Rəsmi Bakı sülh sazişinin Almatı bəyanatı əsasında müzakirəsinin əleyhinə deyil, sadəcə problem ondadır ki, Ermənistandakı siyasətçilər Almatı bəyannaməsini fərqli kontekstdən izah etməyə çalışır. Bəziləri Almatı bəyannaməsinin ”Dağlıq Qarabağın müstəqilliyinə” mane olmadığını iddia edirlər. Ona görə də rəsmi Bakı sülh sazişinin Almatı bəyannaməsi ilə yanaşı BMT Nizamnaməsi əsasında imzalanması gərəkliyini bildirir. Bu ikisi bir arada olarsa, Azərbaycana qarşı ərazi iddiası tam ortadan qaldırılar. Ancaq rusiyalı rəsmilər Almatı bəyannaməsi haqqında danışarkən, BMT Nizamnaməsini xatırlamırlar. Əslində iki dövlətin bir-birinin ərazi bütövlüyünü tanıması üçün sülh sazişinə müvafiq bəndin əlavə edilməsinə ehtiyac var”.

**İsmayıl Qocayev**

# "Azərbaycanın xarici siyasət gündəmi"

## Jurnalistlər üçün bu mövzuda təlim keçirilib





**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Medianın İnkişafı Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə jurnalistlər üçün ”Azərbaycanın xarici siyasət gündəmi” mövzusunda təlim keçirilib.**

”Şərq” xəbər verir ki, təlim Azərbaycanın xarici siyasət gündəmində baş verən son hadisələrin, əməkdaşlıq perspektivlərinin bu sahədə ixtisaslaşmış jurnalistlərə çatdırılması və onların bu xarici siyasətlə bağlı media fəaliyyətlərinə istiqamət verilməsi məqsədini daşıyır.

Təlimdə 25 media təmsilçisi iştirak edib.

Təlimin açılış mərasimində çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycan xarici siyasət gündəminə dair jurnalistlərlə mütəmadi görüşlərin keçirilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, 44 günlük müharibədən sonra regionda yeni reallıqlar formalaşıb və Azərbaycanın səsinin, xarici siyasət kursunun beynəlxalq ictimaiyyətə çatdırılmasında jurnalistlər böyük rola malikdirlər.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov təlimin dünyada və ölkədə baş verən hadisələri, ictimai-siyasi xarakterli prosesləri təhlil edərək cəmiyyətə çatdıran media nümayəndələrinin bu istiqamətdə praktik bacarıqlarının artırılması baxımından xüsusi əhəmiyyət kəsb etdiyini deyib.

O, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə bu ilin yanvar ayında ”Müharibədən sonrakı reallıqlar və media” mövzusunda keçirilən 3 günlük təlimin də Azərbaycan jurnalistlərinin bu istiqamətdə peşəkarlığının artırılması baxımından ciddi praktik addım olduğunu vurğulayıb: ”Vətən müharibəsində qazandığımız qələbə bütün sahələrdə olduğu kimi media ictimaiyyətinin də işində əsaslı dönüş yaratmışdır. Qələbənin əldə olunmasında istər ön, istərsə də arxa cəbhədə fədakarlıq göstərmiş hər bir insanın həyat hekayəsini, möhtəşəm Zəfərimizə verdiyi töhfəni işıqlandırmaq, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərini, ”Böyük Qayıdış”ı geniş auditoriyaya çatdırmaq Azərbaycan jurnalistikasının əsas mövzusudur. İndi Azərbaycan mediası öz işini qalib ölkənin və müasir çağırışların tempinə uyğunlaşdırmaq üçün yeni konseptual yanaşma sərgiləməlidir”.

Təlimçi qismində BMTM-in ixtisaslaşmış ekspertləri iştirak ediblər. BMTM-in İdarə Heyətinin üzvü Esmira Cəfərova ”Ermənistanla Azərbaycan arasında nizamlama prosesi”, BMTM-in şöbə müdiri Cavid Vəliyev ”Azərbaycan-Türkiyə əlaqələri” və BMTM-in aparıcı məsləhətçisi Nağı Əhmədov ”Orta Asiyada son dinamikalar, Orta Dəhliz” mövzusunda təlim keçiblər, iştirakçıların suallarını cavablandırıblar. Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

**Aygün**

# Türkiyənin Suriyada quru əməliyyatları baş tutsa...

## İsveç və Finlandiyanın NATO-ya üzvlük məsələsi sürətlənəcək



**”Biz İsveç və Finlandiyanın NATO üzvlüyünə və təşkilatına genişlənməsinin əleyhinə deyilik”. Bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib. O qeyd edib ki, bununla belə hər iki ölkə terrorla mübarizəsini daha da gücləndirməli, Türkiyənin tələb etdiyi terrorçuları ölkəyə geri ekstradisiya edilməlidir.**

Türkiyənin milli müdafiə naziri Hulusi Akar da vurğulayıb ki, Türkiyə İsveç və Finlandiyanın NATO-ya üzvlüyü ilə bağlı vəziyyəti diqqətlə izləyir: ”Biz İsveç və Finlandiyadakı vəziyyəti diqqətlə izləyirik. Təəssüf ki, hələ də bu ölkələrdə bəzi təxribatçı hərəkətlərin davam etdiyini görürük. Biz həm İsveç, həm də Finlandiyanın konkret addımlar atacağını gözləyirik”.

**Politoloq Azər Qasımov ”Şərq”ə açıqlamasında deyib ki, Finlandiya və İsveçin Türkiyə və Macarıstanın tələblərinə görə ləngiyən NATO-ya üzvlük məsələsi böyük ölçüdə həll edilmiş məsələdir və geri dönüşü yoxdur.** Ekspertə görə, Türkiyənin İsveçdəki PKK-lı terrorçu və fetoçuların geri verilməsi tələbləri tədricən yerinə yetirilir: ”İsveç və Finlandiyanın başqa çıxış yolları da yoxdur. Rusiya qorxusu onları çox narahat edib. İsveçin yeni baş naziri seçilən kimi Türkiyəyə gəldi və dünyanın gözü önündə mətbuat konfransında buna söz verdi.

Terrorçuları himayə etməyin İsveçin təhlükəsizliyini təmin etməkdən vacib olmadığını söylədi. Bundan sonra Türkiyədə həbs cəzası almış, amma İsveçdə gizlənən ilk terrorçu Türkiyəyə təhvil verildi. Görünən odur ki, İsveç baş naziri sözünə əməl etməyə başlayıb. Təbii ki, proses ləng gedir. Türkiyə bundan narazıdır. Ona görə bu ölkələrin NATO-ya üzvlük məsələsinin TBMM-də təsdiqini ləngidir. İsveç bu yolda Türkiyəyə tətbiq etdiyi silah embarqosunu da qaldırıb. Hiss edilir ki, müsbət irəliləyişlər vardır. Finlandiya da əslində İsveçə nisbətən Türkiyənin razılığını almış ölkədir. Onun üzvlük məsələsi daha çox həll edilmiş məsələdir. Sadəcə, Türkiyə Finlandiyanın üzvlük məsələsini tez həll edib əlini zəiflətmək istəmir. İki ölkəni də eyni məsafədə tutmaqla tələblərinə daha tez çatmağı planlaşdırır”.

**Analitik vurğulayıb ki, bu ölkələr ən azı NATO-ya üzv olmaq üçün müvəqqəti də olsa, terrorçulara dəstəyi kəsəcək:** ”Amma sonrakı proseslərdə İsveçin eyni əməllərini davam etdirəcəyinə təminat vermək olmaz. Bunun belə olacağına Amerika, Fransa və digər NATO ölkələrinin əməllərinə baxmaqla fikir söyləmək olar. Amerika indi PKK-nın əsas dəstəkçisi və silah təminatçısıdır. Doğrudur, onlar PKK-nın adını dəyişib başqa adlar qoyublar, amma mahiyyət eyni qalıb. Türkiyədə İstanbulun İstiqlaliyyət küçəsindəki son bombalı terror aktını törədən terrorçu qadının Amerikanın nəzarətində olan Suriyanın Kobani bölgəsindən gəldiyi, orada təlim keçdiyi, təlimat aldığı sübut olundu. Belə halda İsveçin və Finlandiyanın sözlərinə əməl edəcəklərinə inanmaq çətin məsələdir. Türkiyə də bunu bilməmiş deyil. Ankara onların NATO üzvlüyünə veto qoymaqla Amerikanın planlarını pozmağa çalışır, onu geri çəkilməyə məcbur etmək istəyir. Bu baxımdan iki ölkənin üzvlük məsələsinin həll edilməsi Amerikanın addımlarından daha çox asılıdır. Türkiyənin hazırda Suriyanın Menbiç, Tel-Rıfat, Anəl-əl-Arab (Kobani), Ayn-Nisa bölgələrində quru qoşunları ilə keçirmək istədiyi antiterror əməliyyatının baş tutması İsveç və Finlandiyanın NATO-ya üzvlük məsələsini sürətləndirə və həll edə bilər”.

**İsmayıl Qocayev**

# “Sağalıram, yenidən yazıb yaratmaq üçün gün sayıram"

## Səbuhi Məmmədli: “Möcüzə nəticəsində həkimlər həyatımı xilas etdilər”

**A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində müalicə alan jurnalist Səbuhi Məmmədli səhhəti ilə bağlı ”Şərq”ə danışıb.**



Noyabrın 24-də Topçubaşov adına ECM-də sağ ayağının ambutasiya olunduğunu xatırladan S.Məmmədli əməliyyatının xəstəxananın ən yaxşı cərrahları tərəfindən aparıldığını deyib: ”Bilirsiniz ki, böyrəklərimdə kreatinin miqdarı yüksək idi, şəkər, ürək çatışmazlığı, ağciyərimdə problemlər var idi. Amma ayaqlarımdakı qanqrenadan xəbərsiz idim. Bu da həyatım üçün ciddi təhlükə yaratmışdı.

Ona görə də təcili əməliyyat etdilər və ayağımı kəsdilər. Hətta deyərdim ki, möcüzə nəticəsində həkimlər həyatımı xilas etdilər. Məni ölümdən xilas etdikləri üçün ECM-in baş direktoru Rauf Ağayev başda olmaqla əməliyyatımda iştirak edən baş həkim Mirzəliyev İsmayıl və ümumi cərrah Babayev Ceyhun, o cümlədən əməliyyat və daha sonra müalicə prosesimdə yaxından iştirak edən bütün tibb işçilərinə öz minnətdarlığımı bildirirəm. Burada xəstələrə ən yüksək səviyyədə xidmət göstərilir. Tibbi xidmətlərlə yanaşı, kifayət qədər diqqət və qayğı ilə də əhatə olunuram. Hər birindən çox razıyam və çəkdikləri əziyyətə görə öz minnətdarlığımı bildirirəm.

Səhhətimlə bağlı məsələni diqqətdə saxlayıb mənə bu şəraiti yaratdığı üçün TƏBİB-ə xüsusi minnətdarlığımı bildirirəm. İşlədiyim ”APA” Holdinqə təşəkkür edirəm. İlk gündən mənə maddi və mənəvi dayaq olduğuna görə sağ olsun. Həmçinin MEDİA, Mətbuat Şurası diqqət və qayğısını əskik etmədi. Gözlədiyim, gözləmədiyim bütün həmkarlarımdan diqqət gördüm. Yüzlərlə həmkarım zəng edib, mənəvi dəstək oldu. Bütün bunlar da mənə mənəvi güc verir, sağalma prosesini daha da tezləşdirir”.

Səhhətinə gəldikdə isə həmkarımız artıq yaxşılığa doğru getdiyini deyib: ”Ayağım artıq sağalmaq üzrədir. Amma xroniki böyrək çatışmazlığından əziyyət çəkdiyim üçün dializ oluNuram. Ümid edirəm ki, qısa zamanda sağalıb işimin başına qayıdacam. Yenidən yazıb yaratmaq üçün gün sayıram”.

**A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin Ümumi şöbə müdiri Ramil Məmmədli də ”Şərq”ə açıqlamasında Səbuhi müəllimin səhhətinin yaxşı olduğunu, müalicəsində çox ciddi irəliləyişlər hiss olunduğunu deyib:** ”Demək olar ki, hər gün onun səhhəti ilə maraqlanıram, tez-tez özünü ziyarət edirəm. S.Məmmədlinin xətrini hər birimiz çox istəyirik. Bizim üçün çox dəyərlidir. Bilirsiniz ki, Səbuhi müəllimin sağ ayağında dizdən aşağı çürümə getdiyi üçün ayağı kəsilib.

Eyni zamanda dializ olunduğu üçün A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində müalicəsi davam edir. Bir ayağının amputasiya olunması çox üzücü olsa da, bu onu ruhdan salmayıb. Tezliklə sağalıb işə getməyi, cəmiyyət üçün faydalı yazılar yazmağı arzulayırıq . Hələlik müalicəsi davam etdiyi üçün evə nə vaxt çıxacağı ilə bağlı həkimlər dəqiq məlumat verməyib”.

**Şəymən**

# Rusiya artıq status mövzusunda israrlı deyil

## İndi Moskvanı daha çox qızıldan öz nəsibini almaq düşündürür



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla rusiyalı həmkarı Sergey Lavrovun Moskvada görüşü baş tutub. Müzakirə zamanı C.Bayramov postmünaqişə dövründə sülh gündəliyi və Azərbaycan tərəfindən atılan addımlar barədə qarşı tərəfə məlumat verib.**

Nazir həmçinin Ermənistanın prosesi ləngitmək cəhdləri, Üçtərəfli Bəyanat, xüsusilə də 4-cü və 9-cu bəndlər üzrə öhdəliklərini yerinə yetirməməsi, qüvvələrini tam şəkildə ərazilərimizdən çıxarmaması, bütün kommunikasiyaların açılması işinə maneçilik törətməsi üzrə narahatlıqları diqqətə çatdırıb.

Azad olunmuş ərazilərdə mövcud mina təhlükəsindən söz açan C.Bayramov, Azərbaycan ərazilərində 2021-ci ildə Ermənistanda istehsal olunmuş minaların aşkar edilməsinin rəsmi İrəvan tərəfindən öhdəliklərinin ciddi şəkildə pozuntusu olduğunu və sülh prosesinə xələl gətirdiyini vurğulayıb. Bununla yanaşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdə təbii sərvətlərimizin qanunsuz istismarı məsələsi müzakirə mövzusu olub.

**Görüşün gizlinlərini "Şərq"ə açan siyasi şərhçi Aqşin Kərimov bildirib ki, XİN başçılarının danışıqları Azərbaycan və Rusiya arasındakı qızıl söhbətində də razılaşma olduğunu göstərir:** "Rusiyanın sülhməramlılar və ya digər vasitələrlə Azərbaycanın qızıl yataqlarının bir hissəsini qanunsuz istismar etmək sevdası Bakının hiddətinə səbəb olmuşdu. Rusiyadan Azərbaycan-Ermənistan gündəliyində birinciyə qətiyyətli dəstək göstərməsi Bakının onu hansı tezislərlə inandırmağına dair suallar meydana çıxarır. Hərçənd ki, Kremlin özü də bir çox məsələdə Azərbaycanı inandırır, Bakını itirmək qorxusundan ehtiyatlanır. Azərbaycanı Qərbin strateji maraqlarının öhdəsinə verməmək üçün cəlbedici təhlükəsizlik modeli irəli sürür. Təbii ki, Azərbaycan dövləti Moskvadan gələn təkliflərin hamısına dərin etibar bəsləmir, amma hər halda bu, Bakı-Moskva gündəliyini tərəfdaşlıq ovqatına kökləyir".

*"Hazırda ən şiddətli rəqabət Zəngəzur dəhlizinə kimin nəzarət etməsi uğrunda gedir. Qarabağda baş verənlərin bir qismi də bununla bağlıdır"*

**Analitik qeyd edib ki, Bayramov-Lavrov danışıqları bir neçə hadisə fonunda diqqət çəkir:** "Birincisi, Qərbin sülh gündəliyində monopoliya yaratmaq cəhdidir. İkincisi, İranın Azərbaycana qarşı təhdidləridir. Üçüncüsü, Zəngəzur dəhlizinin Moskvanın tərəzisindəki çəkisinin artmasıdır. Hazırda ən şiddətli rəqabət Zəngəzur dəhlizinə kimin nəzarət etməsi uğrunda gedir. Qarabağda baş verənlərin bir qismi də bununla bağlıdır.

Rusiya regiona yaxınlıq səbəbindən bölgəyə təsir imkanlarını itirməyib, lakin Ukraynadakı müharibənin yorğunluğu Moskvanı Zəngəzur dəhlizinin nəzarətçisi olmaq qismindən çıxara bilər.

Ona görə də Moskva Bakı ilə yaxınlığa məhkumdur və öz maraqlarının təminini Azərbaycan-Türkiyə xətti vasitəsilə gerçəkləşdirmək istəyir. İran məsələsində isə Rusiya istəsə də, istəməsə də, Qərbin oxuna çevrilib. Yəni Moskva Tehrana dəstək vermək öhdəliyini hiss etmir və bu da onun Bakıya siyasi sərmayə yatırmasına səbəb olur.

Görüşdə Şimal-Cənub dəhlizinin qabardılması Rusiyanı Zəngəzur dəhlizini həmin beynəlxalq marşruta inteqrasiya etdirməsinin və İranın da prosesdən pay almasının göstəricisi kimi şərh edilə bilər. Rusiya Azərbaycanla İranın didişməsini deyil, ortaq maraqlarla çıxış edib Moskvanın mühərrikini işə salmasını istəyir. Burada isə Tehranın bir öhdəliyi yada düşür: Rəşt-Astara dəmir yolunun öz ərazisindəki tikintisini yekunlaşdırmaq".

**Qarabağla bağlı məqamlara bir daha diqqət çəkən A.Kərimovun sözlərinə görə, Rusiya artıq status mövzusunda israrlı deyil:** "İndi Moskvanı daha çox qızıldan öz nəsibini almaq düşündürür. Bu baş tuta bilər, amma təxribatlarla deyil. Bakı-Moskva trafikində ikitərəfli iqtisadi münasibətlərə əsaslanan təkliflər paketi ilə qızıl yataqlarının birgə hüquqi istismarına dair nəticə əldə oluna bilər. Laçın yolundakı Azərbaycanın quraşdıracağı gömrük postuna gəlincə, bu, o deməkdir ki, Xankəndidə ermənilərin silahlanması arzusu da suya düşürdü.

İrana Gorus-Qafan yolundan sonra Gorus-Xankəndi yolunda da "tıxac" vuruldu. Yəni İran mübhəm və sirli şəxsləri Xankəndiyə göndərə bilməyəcək. Gömrük postu o deməkdir ki, Laçından Azərbaycanın digər ərazilərinə gedib-gələnlərin pasportlarına möhür vurulacaq və qondarma qurumun pasportları etibarsız sayılacaq. Beləliklə, Laçın yolundakı yoxlama Qarabağ ermənilərinin Azərbaycan ictimai-siyasi həyatına inteqrasiyasına şərait yaradacaq.

Əks halda onlar Azərbaycan torpaqlarına "vida" deyərək gedə bilərlər. Bu da olmasa, Azərbaycanın cinayət qanunvericiliyinin tələbləri ilə antiterror əməliyyatları aparması üçün şərtlər asanlaşacaq".

**Nihat Müzəffər**



# Sülh sazişi imzalansa Kremlin əli bölgədən çəkiləcək

## Lavrovun açıqlamaları da bu gerçəkliyi açıq-aydın göstərdi

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov azərbaycanlı həmkarı Ceyhun Bayramov ilə görüşdən sonra keçirilən mətbuat konfransında Praqa müzakirələrinə diqqət çəkib. O qeyd edib ki, Praqada keçirilən görüşdə Azərbaycan və Ermənistan liderləri arasında əldə olunmuş razılaşmalar mühüm əhəmiyyət kəsb edir:**

"Biz hələ də tərəflərə kömək etməyə hazırıq, fundamental məsələlərlə bağlı qərar qəbul etmək vacibdir. Praqada dövlət başçıları bütün problemləri BMT Nizamnaməsini və Almatı Bəyannaməsini rəhbər tutaraq həll etmək niyyətində olduqlarını qeyd ediblər".

**Rusiyanın bu kimi açıqlamalarda səmimi olmadığını deyən hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə söyləyib ki, Rusiya bütün dünyada öz imperial maraqlarını müdafiə edən bir dövlətdir:** "Moskvanın Cənubi Qafqazdakı imperial maraqları bölgədəki təsir imkanlarını saxlamağı və söz sahibi ölkələrdən biri kimi qalmağı tələb edir. Onların bu müstəvidə əsas diqqət etdikləri də Dağlıq Qarabağ münaqişəsinin bitməməsidir.

Çünki bu problem bitərsə, Ermənistan və Azərbaycan arasındakı məsələlər bitmiş sayılır. Bu isə şimal qonşumuzun bölgəyə heç bir şəkildə təsir edə bilməməsi deməkdir.

Ona görə də rəsmi Moskva prosesin uzanmasına çalışır. Biz bunu Lavrovun açıqlamasında da görə bilirik ki, onlar sülh prosesinin Almatı müqaviləsinə əsasən aparılacağını deyirlər.

Yəni Qərb dairələrindəki görüşlərdən yola çıxaraq deyil, məhz Rusiyanın söz sahibi olduğu Almatı müstəvisində həll ediləcək. Bunun özü də Kremlin milli maraqlarına xidmət edir.

Bu səbəblə də açıqlamaları səmimi hesab etmirəm. Onlar problemin həllini gecikdirməyə və ya məsələ həll edilsə belə, Rusiyanın bölgədə əsas güc sahibi olmağa davam etməsinə çalışacaqlar".

**Nihat Müzəffər**



# Elə ölkələr var ki, səfirliyimizin varlığı ilə yoxluğu bilinmir

## Azər Həsrət: "Mətbuatla işləmirlər, vətəndaş cəmiyyətləri, siyasətçilərlə əlaqə qurmurlar"

**Azərbaycanın xaricdə haqqını qorumaq, vətəni müdafiə etmək, dövlətin mövqeyi uğrunda mübarizə aparmaq diaspor təşkilatlarının və diplomatik korpus nümayəndələrinin üzərindədir. Amma nə Vətən müharibəsi dövründə, nə ondan əvvəl, nə də ondan sonra səfirlər, konsullar beynəlxalq aləmdə təsirli addımlar atıblar. Bu qurumlar və onlara rəhbərlik edən şəxslər varlığı ilə yoxluğu hiss olunmayan fəaliyyətlə məşğuldurlar. Bu baxımdan millət vəkilləri diplomatiya sahəsində ciddi islahatların aparılmasını zəruri sayır.**

Milli Məclisin dünən keçirilən iclasında çıxış eədn deputat Fazil Mustafa bildirib ki, Fransa Milli Assambleyasının qətnaməsinə keçən dəfə sərt reaksiyamızı verdik, amma bir şeyi unutduq: "Biz heç öz yarıtmazlığımız haqqında danışmadıq. Necə oldu ki, 256 deputat Azərbaycanın əleyhinə səs verdi? 30 ildir Fransada diplomatik nümayəndəliyimiz fəaliyyət göstərir. Necə olur ki, səfirin Fransada bir deputat dostu olmadı? Diplomatik nümayəndələr 5 il vaxtını öldürür, sonradan qayıdıb gəliblər. Onlardan soruşmaq lazımdır ki, nə işlə məşğul olurlar. Büdcədən pul ayrılır ki, Azərbaycanı tanıdasan, belə tanıdırlar? Elə Azərbaycanı Prezident öz çıxışları ilə tanıdır, o zaman diplomatik nümayəndəliyə nə ehtiyac var?".

*"Xarici ölkələrə təyin olunan diplomatlar ölkəni təmsil etməyə həqiqətən layiqli, peşəkar və intellektli şəxslər olmalıdır və bu zaman qohumluq əlaqələrinə deyil, daha çox bu sahədə peşəkarlığı ilə fərqlənən insanlara üstünlük verilməlidir"*

**Siyasi şərhçi Azər Həsrətin " Şərq"ə açıqlamasına görə, Azərbaycanın xaricdəki səfirləri və digər diplomatik korpus nümayəndələri Azərbaycanın milli, dövlətçilik maraqlarını təmin etmək üçün ən müxtəlif tədbirlərə əl atmalı, işlədikləri ölkələrin vətəndaş cəmiyyətləri, mətbuat orqanları ilə sıx əlaqə qurmağı bacarmalıdırlar:** "Xarici ölkələrə təyin olunan diplomatlar ölkəni təmsil etməyə həqiqətən layiqli, peşəkar və intellektli şəxslər olmalıdır və bu zaman qohumluq əlaqələrinə deyil, daha çox bu sahədə peşəkarlığı ilə fərqlənən insanlara üstünlük verilməlidir.

Xüsusən də postmüharibə dövründə Azərbaycanı xarici ölkələrdə təmsil edən diplomatlardan yüksək təşkilatçılıq, korporativ idarəçilik-menecerlik bacarığı, natiqlik, dərin siyasi biliklərə malik olmaq, geosiyasi və geoiqtisadi prosesləri duymaq, ölkənin nüfuzunun yüksəldilməsi üçün media və sosial mediada PR işini qurmaq bacarığı, maksimum çeviklik tələb olunur. Amma bizim diplomatlarımızın böyük əksəriyyəti onlara göstərilən etimadı doğrulda bilmir".

**Konkret olaraq Fransa məsələsinə gəldikdə isə A.Həsrət deyib ki, uzun illər Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllində vasitəçi dövlətlərdən biri olmasına rəğmən biz hər zaman Fransanın ermənipərəst mövqe sərgiləməsinin şahidi olmuşuq:** "Proses bu gün də davam edir və tək Fransada deyil, dünyanın aparıcı ölkələrinin bir çoxunda anti-Azərbaycan siyasəti davam etdirilir. Bunun da səbəbi erməni təbliğatının çox güclü şəkildə aparılmasıdır. Biz bu təbliğatı dəfələrlə açıq formada hiss etmişik. Amma burada bizim diplomatik korpuslarımızın da günahı çoxdur. Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin bir çoxu yarıtmaz fəaliyyət göstərir. Xüsusən də böyük ölkələrdəki səfirliklər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmür. Mən dəfələrlə bu məsələnin üzərinə getmişəm. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri olduqları ölkələrin mediası ilə çox zəif əlaqə qurur. Bu cür əlaqələr genişləndirilməlidir. Bir çox ölkələrdəki səfirliklər tədbir keçirmək üçün Bakıdan pul ayrılacağını oturub gözləyirlər. Halbuki erməni səfirlikləri İrəvandan maddiyyat güdmür.

Əksinə, milyonlarla dollar məbləğində Ermənistana maddi yardım edir. Bax bu bizim qüsurumuzdur".

Ekspertin sözlərinə görə, səfirliklərə milli vətənpərvərlik ruhda olan insanlar göndərilməlidir. Kadr seçimi zamanı dilimizi mükəmməl bilən şəxslərə üstünlük verilməlidir. Elə ölkələr var ki, həmin ölkədə səfirliyimizin varlığı ilə yoxluğu bilinmir. Mətbuatla işləmir, vətəndaş cəmiyyətləri, siyasətçilərlə əlaqələr qurmurlar. Bu cür ölkələr axı bizə niyə dəstək versin? Heç bizim bir dövlət olaraq varlığımızdan belə xəbərdar deyillər".

**Şəymən**

# 30 il İran bizimlə tək qapıya oynayıb

## Bundan sonra Azərbaycan mediası bir gün də olsa Güneyi yaddan çıxarmamalıdır

**"Azərbaycan televiziya və radiolarında İranda yaşayan soydaşlarımıza yönəlik verilişlər hazırlanmalıdır".**

**Bunu Milli Məclisin deputatı Ceyhun Məmmədov parlamentin dünən keçirilən plenar iclasında deyib.**

Onun sözlərinə görə, İranın bir sıra xəbər agentlikləri, eləcə də televiziya kanalları, xüsusilə "Səhər" kanalı Azərbaycan Prezidenti və xalqının ünvanına davamlı olaraq hədyanlar yağdırırlar: "İran radioları da Azərbaycanın efir məkanına müdaxilə edirlər. Eyni zamanda sosial şəbəkələrdə müəyyən səhifələr yaradılır, Azərbaycanda yaşayan müxtəlif xalqların adlarından istifadə edilərək ölkəmiz əleyhinə təbliğat davam etdirilir. "Səhər" kanalının və İran radiolarının Azərbaycanın efir məkanına müdaxiləsi ilə bağlı uzun müddətdir müzakirələr aparılır, ancaq hələ də bu məsələ həllini tapmayıb. Biz bu barədə ciddi şəkildə düşünməliyik".

Deputat bildirib ki, İranda yaşayan azərbaycanlılar üçün teleradio verilişləri hazırlanmalıdır: "Biz müxtəlif dillərdə, xüsusilə fars və ərəb dillərində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və erməni vəhşiliyinin ifşası istiqamətində təbliğat işlərini də qurmalıyıq. Məsələn, qardaş Türkiyənin TRT telekanalı müxtəlif dillərdə yayımlanır, ölkə həqiqətlərini dünyaya çatdırır. Biz də indidən informasiya müharibəsində qələbəmizi gücləndirmək üçün bu cür addımlar atmalıyıq".

**Güney Azərbaycan üzrə araşdırmaçı, jurnalist Elman Cəfərli "Şərq"ə açıqlamasında millət vəkilinin kifayət qədər aktual məsələyə toxunduğunu deyib:** "Biz bu barədə iki ildən çoxdur ki, yazırıq, təkliflər veririk. 30 il İran bizimlə münasibətlərə tək qapıya oynayıb. Bakıda İran Mədəniyyət Mərkəzi fəaliyyət göstərib, amma biz Tehranda eyni işi görə bilməmişik. İcazə verməyiblər. İran tele-radioları efir məkanımıza daxil olub, ancaq biz onun qarşısını ala bilməmişik. Azərbaycan tərəfi heç zaman İranla münasibətlərin gərginləşməsində maraqlı olmayıb. Ancaq 44 günlük savaş zamanı və ondan sonra baş verən proseslər göstərdi ki, biz mehriban və dinc qonşuluq siyasəti yeritsək də, İran üçün bunun əhəmiyyəti yoxdur. Onlar Azərbaycanın güclənməsini, Güney üçün nümunəvi sekulyar dövlətə çevrilməsini istəmirlər. Nəhayət, Azərbaycan tərəfi başa düşdü ki, İranı anladığı dildə başa salmaq lazımdır. Biz Arazın o tayında İranın burada etdiyini etməməliyik. Bu, lazım da deyil. Biz 35 milyon azərbaycanlının ana dilində təhsil hüququ məsələsini qoymalıyıq. Azərbaycan televiziyalarında Güneydə baxılan verilişlər hazılamalıyıq. Bu iş sistemli və ardıcıl olmalıdır, kampaniya xarakteri daşımamalıdır. "Səhər-2" Azərbaycanda fəaliyyət göstərir, beyinləri zəhərləyir".



*Elman Cəfərli: "Güney Azərbaycan Televiziyasının yerli kabel televiziyaları vasitəsilə yayımına icazə verilməlidir"*

**E.Cəfərlinin sözlərinə görə, Güney Azərbaycan Televiziyasının yerli kabel televiziyaları vasitəsilə yayımına icazə verilməlidir. İri media qrupları Güney Azərbaycanla bağlı layihələr etməlidir:** "Azərbaycan TV-lərində türk tarixi ilə bağlı teleseriallar çəkilməlidir. "Atabəylər" serialının çəkilməsi təqdir olunmalıdır. Siyasi qurumlar, hüquq-müdafiə təşkilatları, media 1 gün də olsa Güneyi yaddan çıxarmamalıdır. Bakıda Güneylə bağlı təşkilatların ofisləri fəaliyyət göstərməlidir. Güneylə bağlı saytlar açılmalıdır. İran rejimi Azərbaycana qarşı təxribat aparan azərbaycanlı satqınlara şərait yaradır. Biz 35 milyonun hüquqlarını qoruyan güneyli mühacirlərə dəstək verməliyik. Bakıda yaşayan güneylilərə rahat oturum izni və vətəndaşlıq verilməlidir".

**Şəymən**

# Niyə bir vətəndaş bir qutudan artıq dərman gətirə bilməz?

## Razi Nurullayev deyib ki, hökumət problemi həll etməlidir



**"Bu gün ölkədə bütün sahələrdə bahaçılıq davam edir. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün hökumət tərəfindən addımlar atılır, amma bahalaşma fonunda yenə də geridə qalır". Bunu millət vəkili Razi Nurullayev parlamentin plenar iclasında deyib.**

Deputat bildirib ki, elə məhsullar var ki, onlar vətəndaşlar üçün zəruridir və gərək o məhsulların vətəndaşlar tərəfindən şəxsi istifadəsi üçün gətirilməsinə problemlər yaradılmasın: "Xaricə səyahət edənlər geri dönəndə özləri ilə ehtiyacları olan dərman preparatları alıb gətirir. Quru sərhədləri bağlıdır, yalnız hava yolu ilə mümkündür. Niyə bir vətəndaş bir qutudan artıq dərman gətirə bilməz? Vətəndaşın ömürlük, yaxud 3 aylıq, bir illik atacağı dərmanlar var. O vətəndaş digər ölkələrdən gələndə bir neçə aylıq dərmanını alır və zənnimcə, düz edir. Nəinki düz edir, vacib olanı edir. Bunu mən də etmək istəyirəm. Çünki vətəndaşın xaricdən alıb gətirdiyi dərman bizim apteklərdə bəzən 5-7 dəfə baha olur. Şəxsən mən xarici ölkəyə gedəndə elə qohum-əqrəbamın məndən xahiş etdiyi dərman bir zənbil olur. O insanları tanıyıram ki, xəstədir, o dərmanlara ehtiyacı var, baha olduğuna görə çatdırıb ala bilmir. Heç zaman bir qutudan artıq dərman almamışam. Çünki narahat olmuşam ki, hava limanında üzümə söz gələr. Amma bu o deməkdir ki, o insan bahaçılığa görə o dərmanları ala bilmir, bir neçə il ömrü qısalır. Bu, ürəkağrıdıcı mənzərədir".

**Deputat mövcud problemdən çıxış yollarını da göstərib:** "Ya biz dərmanların qiymətini elə tənzimləməliyik ki, fərq bir dəfə olsun, ya da insanların şəxsi istifadəsi üçün gətirdiyi dərmanların sərhədlərdə yoxlamaya məruz qalaraq müsadirə edilməsinin qarşısını alaq. İnsan xəstə olduğunu və o dərmanlara ehtiyacı olduğunu belə göstərən zaman güzəşt edilmir. Mən aidiyyəti qurumun əməkdaşlarını qınamıram. Onlar vəzifə borclarını yerinə yetirir. Bu məsələ hökumətlə ciddi müzakirə edilməli və həll yolu qısa zamanda tapılmalıdır. İnsanlar yazıqdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi




# Müraciətlərin sayı hər gün artır

## İctimai Nəzarət Onlayn Platforması şəffaflığa və hesabatlılığa ciddi təkan verir

**Paytaxtda "İctimai nəzarət" layihəsinin onlayn platformasının (www.enezaret.az) görülən işlərin yekunlarına həsr olunmuş dəyirmi masa keçirilib. İctimai Nəzarət Onlayn Platforması ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Şəffaflıq üçün Vətəndaş Cəmiyyəti (ECSOFT) layihəsi çərçivəsində Milli Açıq Hökumət Platforması ilə birgə həyata keçirilən pilot layihədir.**

Layihənin icrası "MG Consulting" MMC tərəfindən həyata keçirilir. Bu platformanın yaradılmasında məqsəd ictimai maraq doğuran bəzi məsələlər (yollar, infrastruktur, abadlıq və s.) ilə bağlı vətəndaşlardan video və foto sübutlarla məlumat almaq və onların aidiyyəti dövlət orqanlarında həllinə nail olmaqdır. Qeyd edək ki, Platformanın təqdimatı 02 iyun 2021-ci il tarixdə keçirilib. Və həmin vaxtdan etibarən Onlayn İctimai Nəzarət Platforması vətəndaşların ixtiyarına verilib, müraciətlərin qəbuluna başlanılıb. Adından da göründüyü kimi Onlayn İctimai Nəzarət Platforması vətəndaşlardan daxil olan müraciətləri qəbul edərək həlli üçün müvafiq orqanlara yönləndirir. Məsələn, boru sızması, məişət tullantılarının daşınmaması, yol örtüyünün dağılması, təhlükə yaradan ağaclar, açıq lyuklar və sair problemlərlə rastlaşdıqda vətəndaşlar "WhatsApp" (055 4502013) və ya sayt vasitəsilə (www.enezaret.az) Enəzarət komandasına məlumat çatdırır, platformanın vəkilləri isə problemlərin həlli istiqamətində müvafiq addımlar atırlar.

Dəyirmi masada çıxış edən "MG Consulting"in nümayəndəsi Hamlet Babayev görülən işlərin yekunları barədə danışaraq qeyd edib ki, bu ilin sentyabr-noyabr aylarında onlayn ictimai nəzarət platformasında qeydə alınan müraciətlərin 70 faizə yaxını təmin edilib. Bu, mühüm göstəricidir: "Bu günə kimi Azərbaycanda ictimai nəzarətin onlayn platforması çərçivəsində müraciətlərin ümumi sayı 5 minə yaxın olub. Müraciətlərin ümumi sayından 1445 müraciət ümumi qaydalara aiddir, onlardan 737-si artıq təmin edilib, 285-nə baxılması nəzərdə tutulub. Müraciətlərin əsas hissəsi nəqliyyat, səkilər və lyuklarla əlaqədar problemlərlə bağlı olub. Babayev əlavə edib ki, müraciətlərin 76 faizi "WhatsApp" sosial şəbəkəsi vasitəsilə göndərilib. H.Babayev qeyd edib ki, ictimai nəzarətin onlayn platformasında qeydə alınan müraciətlər çərçivəsində problemlərin həlli üzrə reytinqə Bakı Şəhər İcra Hakimiyyəti başçılıq edir. İlk üçlüyü "Azərsu" ASC və Daxili İşlər Nazirliyi tamamlayır. "Bu gün onlayn platforma çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinə daxil olan müraciətlərin ümumi sayı 373-dür ki, onlardan 265-i artıq təmin olunub", - deyə H.Babayev vurğulayıb. H.Babayev əlavə edib ki, onlayn platforma çərçivəsində "Azərsu" ASC-yə daxil olan müraciətlərin ümumi sayı 237-dir.

Dəyirmi masada iştirak edən USAID-in Azərbaycandakı missiyasının direktoru Maykl Nerbass "İctimai nəzarətin onlayn platforması" layihəsinin vacibliyindən danışıb. M.Nerbass bildirib ki, ictimai nəzarətin onlayn platformasının üstünlüyü ondan ibarətdir ki, vətəndaş aktivliyi təmin edlir, hər kəs gördüyü hallar, rastlaşdığı hadisələrlə bağlı məlumat mübadiləsi aparır, məlumatları onlayn platformaya göndərməklə operativ reaksiya verilməsini təmin etmiş olur, bu da sonda yüksək keyfiyyətli nəticələrə gətirib çıxarır. "Müraciətlər həll olunduqca, insanlar nəticəsini gördükcə yeni müraciətlərin sayı da artır. İl ərzində daxil olan müraciətlərin 70 faizi öz həllini tapıb. Bu çox yaxşı nəticədir, lakin biz daha çox nailiyyət əldə etməyə çalışırıq. Vətəndaşlar nə qədər fəal olarsa, hökumətin müraciətlərə reaksiyası da bir o qədər tez olar. Bu da öz növbəsində müvafiq dövlət qurumlarının fəaliyyətinə töhfə verir", - deyə o bildirib.

**İctimai Nəzarət Onlayn Platforması həqiqətən də gözlənilən nəticəni verirmi? Suala cavabında Açıq Hökumət platformasının koordinatoru Əliməmməd Nuriyev ölkəmizdə ictimai nəzarət və ictimai iştirakçılıq sahəsində qanunvericiliyin son illərdə təkmilləşdiyini bildirdi. "Şərq"ə açıqlamasında Ə.Nuriyev qeyd etdi ki, ölkə rəhbərliyinin iradəsi və vətəndaş cəmiyyətinə dəstəyi son illərdə ictimai nəzarətin yüksəlməsinə səbəb olub:**

- Vətəndaş və dövlət maraqları baxımından ictimai nəzarət çox önəmlidir. "Onlayn İctimai Nəzarət Platforması" da ictimai nəzarətin tətbiqində mühüm əhəmiyyət kəsb edən platformadır. Bu platforma vətəndaşlar üçün bir çox imkanlar yaradır. Onlayn İctimai Nəzarət Platforması ictimaiyyət üçün narahatlıq doğuran hər bir məsələyə səlahiyyətli orqanların reaksiyasını qiymətləndirmək imkanı təmin edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, "İctimaiyyəti bizim ümumi işimizə cəlb etməliyik. Həm ictimaiyyət nümayəndələri öz səylərini göstərsinlər, həm də sizin işinizə, dövlət orqanlarının işinə nəzarət etsinlər". İctimai nəzarət dövlət orqanlarının işində şəffaflığın və hesabatlılığın artmasına ciddi təkan verir. İctimai nəzarəti həyata keçirməklə vətəndaş dövlət idarəçiliyində iştirak etmiş olur, aktiv və məsuliyyətli vətəndaş kimi çıxış edir. Nəticədə dövlətin müvafiq orqanları Onlayn İctimai Nəzarət Platformasının müəyyən etdiyi bir sıra problemlərə dair operativ, qərəzsiz və peşəkar tərtib edilmiş müraciət əldə edirlər. Hazırda sosial şəbəkələrdə oxşar problemlər qaldırılanda, görürük ki, müxtəlif insanlar dövlət orqanlarının ünvanına tənqidi fikirlərlə çıxış edir. Belə münasibət dövlət orqanı ilə vətəndaş münasibətlərində maneə yaradır. Halbuki hər hansı problemlə bağlı müvafiq orqana operativ müraciət, məlumat daxil olduqda, problemin daha tez həllinin şahidi oluruq. Məsələ vətəndaşların baş vermiş hadisəyə, yaranmış hansısa problemin aidiyyəti dövlət orqanına operativ çatdırmasındadır. Onlayn İctimai Nəzarət Platforması vətəndaşlara bu imkanı yaradır. Platformanın internet saytına daxil olduqda vətəndaşlardan daxil olmuş müraciətlərin məzmunu, daha çox hansı məsələlərlə bağlı müracitələr edildiyi, həll edilmiş problemlər, eləcə də icra mərhələsində olan işlər barədə məlumatlar almaq mümkündür. Onlayn Platformanın üstünlüyü həm də budur ki, burada kənar şəxslərin hər hansı rəy, fikir və ya mövqe bildirmək imkanı yoxdur. Eyni zamanda, mətbuat orqanları bu platformadan məlumat mənbəyi kimi istifadə edə bilir. Platforma vətəndaşa icma problemlərinin həllinə nail olmaq, eyni zamanda ictimai nəzarəti həyata keçirərək dövlət idarəçiliyində iştirak etmək imkanı yaradır. Vətəndaş aktivliyi, vətəndaşın dövlətə dəstəyi həm də budur.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



## Səhiyyə Nazirliyinin suçu yoxdur

### Ölkədə dərman problemi idxalla məşğul olan şirkətlərlə daha çox bağlıdır

**Azərbaycanda bəzi dərman vasitələrinin tapılmaması həm xəstələr, həm də həkimlər üçün narahatlıq yaradır. Bunu deputat Rəşad Mahmudov Milli Məclisin dünən keçirilən iclasında deyib.**

O qeyd edib ki, dərman qıtlığı təcili tədbirlər görülməsini zəruri edir: "Dərman qıtlığının başlıca 3 səbəbi var, bunlardan ikisi beynəlxalq, biri isə daxili amildir. Birinci problem pandemiyanın dünya üçün yaratdığı sıxıntılar, istehsal zəncirinin qırılması, logistika xərclərinin yüksək səviyyəyə çatması, ikinci məsələ Rusiya-Ukrayna müharibəsi, bu ölkələrdən dərmanların gətirilməsindəki problemlərdir. Üçüncü vacib məsələ isə qiymət tənzimlənməsidir. Yuxarıda sadalanan səbəblərə görə dərman qiymətlərində artım baş verib. Dərman gətirən özəl şirkətlər isə özləri qiyməti qaldıra bilmədikləri üçün dərman preparatlarını ölkəyə gətirməyə tərəddüd edirlər. Hesab edirəm ki, dərman qiymətlərinin tənzimlənməsinə ehtiyac var".

**Yaranmış problemlə bağlı "Şərq"ə danışan iqtisadçı Natiq Cəfərli adıçəkilən dərman preparatlarının qıtlığının Rusiya-Ukrayna müharibəsiylə əlaqəli olmadığını dedi:**

- Bəli, dərman preparatlarının ölkəyə gətirilməsində problem yaşanır, logistika məsələləri çətinləşib. Lakin bu, nə Ukrayna ilə bağlıdır, nə də Səhiyyə Nazirliyi ilə. Ukrayna dərman preparatlarının ixracından 8 aydır kənardadır. SN isə dərman gətirən qurum deyil. Yaranmış problem, məncə, dərman preparatlarının idxalı ilə məşğul olan şirkətlərlə daha çox bağlıdır. Əsas məsələ də dərmanların qiymətidir. Hazırda dərmanları əvvəlki - köhnə qiymətlərlə ölkəyə gətirmək idxalçı şirkətlərə sərf etmir. Onlar gözləyir ki, Tarif Şurası məsələyə baxsın, qiymətlərdə dəyişiklik edilsin, yeni qiymətlərlə idxala başlasınlar. Problem idxalçı şirkətlərlə bağlıdır.

**N.Cəfərli qeyd etdi ki, ölkənin dərman bazarının 96 faiz idxaldan asılı olması vəziyyəti daha da çətinləşdirir:**

- Ümumiyyətlə, istənilən halda idxaldan asılılıq qiymət artımı yaradır. Ona görə də illərdir mütəxəssislər bildirir ki, idxaldan asılılıq azalmalıdır. Ərzaq məhsullarında olduğu kimi dərman preparatları ilə bağlı da idxaldan asılı olduğumuz üçün qiymət artımı qaçılmaz hal alıb. Ölkədə tibbi ləvazimatların istehsal həcmi cəmi 4 faizdir. Bu da gündəlik istifadə olunan pambıq, tibbi maska, tibbi spirt kimi gündəlik istifadə edilən bir-iki tibbi ləvazimatdır. Ölkədə dərman istehsalı sıfır həddindədir deyə, idxaldan asılılıq çox böyükdür və nəticədə gördüyümüz kimi bu cür ciddi problemlər yaranır. Nə etmək olar? Dərman preparatları, o cümlədən ərzaq məhsullarından alınan 18 faizlik əlavə dəyər vergisi ya ləğv edilməli, ya da heç olmasa, iki faiz azaldıla bilər, yəni 16 faiz güzəşt tətbiq oluna bilər. Gömrük rüsumlarında, dərman preparatlarına və ərzaq məhsullarına 15 faizlik gömrük rüsumu tamamilə ləğv edilə bilər. Bu, qiymət artımının qarşısını müəyyən qədər alar. İdxalçılar da zərərə düşməyəcəklərini bilib dərman preparatlarının ölkəyə idxalını sürətləndirərlər.

**Məlahət Rzayeva**

# Tıxaclardan qurtuluş yoxdur

## "1 manatlıq" taksilər problemlərin yalnız bir fraqmentidir

**Bakı Nəqliyyat Agentliyi, yollarda tıxaca düşüb əsəb, stress keçirən sərnişlənlərin dərdinə şərik çıxdı. Tıxac probleminin həlli ilə bağlı mütəxəssislərin illərdir təkidlə səsləndirdiyi təklifləri də, nəhayət, diqqətə aldı. Və ictimai nəqliyyatın tıxacdan çıxması üçün avtobus zolaqlanın çəkilməsinin optimal həll yolu olduğunu təsdiq etdi.**



### İctimai nəqliyyatın daha çox sərnişin daşıyan növləri inkişaf etdirilməlidir

Xüsusi avtobus zolaqları ilə bağlı dünən keçirilən mətbuat konfransında çıxış edən BNA mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirib ki, son aylarda yollarda müşahidə olunan tıxac, sıxlıq və avtobusların gecikməsi müvafiq tədbirlərin həyata keçirilməsini daha da aktuallaşdırır. Onun sözlərinə görə, müşahidə olunan problemlər pik və qeyri-pik saatları, iş və qeyri-iş günlərində yol hərəkətində fərq anlamının silinməsinə gətirib çıxarıb. Bütün bunlar xüsusi avtobus zolaqları şəbəkəsinin yaradılması məsələsini daha da aktuallaşdırıb: "Son illərdə keçirilən müşahidələr onu göstərir ki, ictimai nəqliyyatdan istifadə edənlərin sayı artıb (2016-2019 illər ərzində 27 faiz artım). Son aylar Bakının nəqliyyat sistemində sıxlıqlar, dayanacaqlarda sərnişinlərin keçirdiyi əsəb, stres, avtobusların hərəkət intervalında gecikmələr şəhər nəqliyyatı ilə bağlı prioritetlərin dəyişdirilməsini ortaya qoyur. Tıxacların aradan qaldırılması üçün əsas məsələ avtobus zolaqlarının təşkilidir". M.Ağayev xatırladıb ki, oktyabr ayında Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilən müzakirələr nəticəsində Bakıda tıxacların aradan qaldırılması ilə bağlı tədbirlər planı hazırlanıb və qurumlar qarşısında bir sıra tapşırıqlar qoyulub. "Bunlar əsasən Bakıda ictimai nəqliyyatın fəaliyyətinin tənzimlənməsi, yolların buraxıcılıq imkanlarının artırılması, ictimai nəqliyyatın daha səmərəli olması ilə bağlıdır. Daha doğrusu, 7 A müntəzəm marşrut xəttinin keçdiyi küçə və prospektlərdə əlavə avtobus zolaqlarının olmasıdır". M.Ağayev qeyd edib ki, tədbirlər planına uyğun olaraq Abşeron rayonunun Xırdalan şəhərindən Bakı istiqamətinə xüsusi avtobus zolağı çəkilə bilər. Xüsusi avtobus zolağı əvvəl 10 küçədə idisə, sonradan belə küçələrin sayı 17-yə çatdırılıb. Hazırda 49 küçə ilə bağlı belə zolağın çəkilməsi nəzərdə tutulub: "Xırdalan-Bakı arasında ictimai nəqliyyat əlaqəsinin qurulmasında Bakı-Xırdalan avtomobil yolu ən vacib dəhlizlərdən biridir. Bu yolda tıxaclar qabarıq hiss olunur. Biz bununla bağlı təklif vermişik və digər müvafiq qurumların rəyindən sonra həmin ərazidə xüsusi zolağın çəkilməsilə bağlı qərar qəbul olunacaq".

M.Ağayev qeyd edib ki, Bakının ictimai nəqliyyatına tramvay və troleybusların daxil edilməsi uzun müddətə reallaşacaq plana aiddir. M.Ağayevin sözlərinə görə, hazırda Bakıda ictimai nəqliyyat metro və avtobuslardan ibarətdir. Metronun hərəkəti məhduddur, ona görə də yük avtobusların üzərinə düşür: "Yaranan tıxaclarla bağlı əhalinin qınaq obyektinə çevrilməmizin əsas səbəbi də elə budur". O qeyd edib ki, əvvəllər ictimai nəqliyyat vasitələri kimi alternativ nəqliyyat vasitələri, o cümlədən tramvay və troleybuslar var idi: "Hazırda əhalinin sayı da xeyli artıb. Qeyri-rəsmi məlumata görə, paytaxtda 5 milyon əhali yaşayır. Tramvay və troleybusların olmasını biz də təqdir edirik. Bildiyimizə görə, şəhərin Baş planında bu məsələ var idi. Lakin bu, uzun müddətə reallaşacaq plana aiddir".

M.Ağayev görülən tədbirlər nəticəsində son 7 ildə paytaxtda istismarda olan avtobusların 70 faizdən çoxunun yeniləndiyini deyib. Qurum rəsmisi bildirib ki, pandemiyadan öncəki dövrdə avtobuslarla sərnişin səfər sayları hər il artıb. Amma pandemiya ilə əlaqədar səyahət sayında 50 faizə qədər azalma olub: "Bu tendensiya dünyanın bütün şəhərlərində müşahidə edildi. Təhlillər göstərir ki, həmin şəhərlərdə son iki ildə ictimai nəqliyyata etibar yenidən artmağa başlayıb. Buna onlar yollarda avtobus zolaqlarının tətbiqi ilə nail olub. Misal olaraq, Tbilisini göstərə bilərik".

M.Ağayev 1 manatlıq (əslində 1 manatlıq taksilər daha qalmayıb, 2 manatlıqdır - M.R. ) taksiləri də hədəfə alıb. BNA rəsmisi qeyd edib ki, qanunsuz sərnişindaşıma vasitələrinin mövcudluğu və onların yaratdığı mənzərə leqal sərnişin daşımalarına ciddi maneə törədir. Mətbuat katibi bildirib ki, sərnişinlərin "1 manatlıq" taksilərdən istifadəsi yollarda xaotik vəziyyət yaradır: ""Metronun "20 yanvar" və "Koroğlu" stansiyaları istiqamətində hər gün axşam və səhər saatlarında xaotik vəziyyət müşahidə olunur. Koroğlu Nəqliyyat Mübadilə Mərkəzindən Bakının müxtəlif kəndləri istiqamətində hərəkət edən avtobuslar var. Amma insanlar metrodan çıxıb müəyyən bir məsafəni qət edərək həmin mübadilə mərkəzinə getmək istəmir, "1 manatlıq taksilər"dən və ya digər qanunsuz sərnişindaşıma vasitələrindən istifadə edir. Nəticədə həm yolda xaotik vəziyyət baş verir, həm də daşıyıcı sərnişin itirir. Daşıyıcı sərnişin itirəndə də onun gəlirləri azalır. Elə görünür ki, həmin ərazidə avtobus yoxdur. Əslində isə belə deyil. Həmin sərnişinlər Nəqliyyat Mübadilə Mərkəzinə yönəlsə, onları daşımaq üçün avtobus da olacaq. Bu gün Bakıda istehsalat bazalarında kifayət qədər avtobus var", - M.Ağayev qeyd edib. "Bəzi hallarda qanunsuz sərnişindaşıma vasitələri dayanacaqların ətrafında elə bir süni tıxac halı yaradır ki, avtobusların o məntəqələrə giriş-çıxışında çətinlik olur. Nəticədə sərnişinlər həmin "1 manatlıq" taksilərdən istifadə edirlər", - M.Ağayev əlavə edib.

Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli isə yol qaydaları pozuntularının çoxunun dayanma-durmanın payına düşdüyünü deyib: "Bunların sırasında avtobus dayanacaqlarının, avtobus zolaqlarının zəbt olunması da qeyd edilməlidir".

**Mətbuat konfransında səslənən fikirlərə ekspertlər nə deyir? Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev "Azərbaycan Yol Mühəndisləri" qrupunda paylaşım edərək münasibət bildirib. Ekspert hesab edir ki, mövcud tıxac problemi kompleks tədbirlər planı icra etməyi tələb edir:**

- Taksi - problemlərin bir fraqmentidir. İctimai nəqliyyatın daha çox sərnişin daşıyan növləri inkişaf etdirilməlidir. Məsələn, yüngül relsli dəmiryolu sistemi böyük şəhərlərdə effektivdir, çünki eyni anda daha çox sərnişin daşıya bilər, bu, bizdə tətbiq edilməlidir. Metro şəbəkəsi daha baha başa gəldiyindən və bu səbəbdən tikinti sürəti zəif olduğundan şəbəkə zəif genişlənir. Bundan əlavə, Bakı-Sumqayıt-Xırdalan istiqamətində mövcud dəmiryolu şəbəkəsini istifadə etməklə onu yerüstü metroya çevirmək olar. Bu gün qatar sayı artırılmalıdır. Belə tələblər var, amma təkliflər məhduddur. Tələbi təklif qarşılamadıqda isə taksilərin sayının çoxalması müşahidə olunur. Hətta fikrimcə, rəqəmlər daha çoxdur, çünki qeyri-rəsmi fəaliyyət göstərənlər də var, onların hamısı yaranmış boşluğu doldurur. Problemdən çıxış yolu daha çox sərnişin daşıyan ictimai nəqliyyat növlərinin inkişaf etdirilməsidir. Tıxac bir günə əmələ gəlmədiyi üçün onun həlli də mərhələli - yaxın, orta və uzaq hədəfli həll variantları ilə icra edilməlidir. İctimai nəqliyyatın cəlbediciliyini artırmaq üçün mövcud yol şəbəkəsində onun üstünlüyünü təşkil etməliyik. Ayrılmış avtobus zolağı, dəhlizlərin formalaşdırılması, mövcud yol sahəsində bəzi transformasiya işlərinin həyata keçirilməsi müsbət nəticə verə bilər. Məsələn, zolaqların ensizləşdirilməsi həm təhlükəsizliyə müsbət təsir göstərər, həm də qalan sahədə velosiped zolağı təşkil etmək olar. Bu addım şəhərimizdə artan mikromobillik vasitələri üçün yaxşı fürsət olar, yeni bir reallıq yaranar. Belə ki, hazırda getdiyiniz yolda hamı tıxacda dayanır, amma alternativlər formalaşanda, avtobus və velosiped zolağı təşkil edildə avtomobilə üstünlük verənlərin müəyyən faizi ictimai nəqliyyata yönələcək və bu da indiki vəziyyəti kökündən dəyişəcək. Elə buna görə kompleks tədbirlərin icrası tələb olunur.

**Məlahət Rzayeva**

# Hər kəs fərdi informasiyasını qorumalıdır

## Sosial şəbəkələrdən başqa məqsədlər üçün istifadə edənlər çoxdur



**Paytaxtın Xətai və Yasamal rayonlarında ayrı-ayrı şəxslərə qarşı soyğunçuluq edən şəxs tutulub. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən cinayətləri törətməkdə şübhəli bilinən Mehdi Abaszadə saxlanılıb. Onun paytaxt ərazisində iki nəfərin 750 və 580 manat pulunu ələ keçirdiyi müəyyən edilib.**

Araşdırma zamanı Mehdi Abaszadənin paytaxtın digər ərazilərində də analoji cinayətlər etdiyi məlum olub. Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat nəticəsində isə instaqram sosial şəbəkəsində tanış olduğu şəxsi daha sonra barəsində rüsvayedici məlumatlar yayacağı ilə hədələyərək pul tələb edən Rasim Həsənov saxlanılıb. Onun müxtəlif vaxtlarda zərərçəkəndən metronun "Həzi Aslanov" stansiyasının yaxınlığında 1100 dollar aldığı müəyyən edilib.

Mehdi Abaszadə və Rasim Həsənov barəsində toplanan materiallar Xətai Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib.

"Bu şəxslərin qanunsuz əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa Xətai Rayon Polis İdarəsinə, ərazi polis orqanlarına, "102" Xidməti-Zəng Mərkəzinə və nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə məlumat verə bilərlər", - məlumatda qeyd edilib.

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz hesab edir ki, internet açıq mühitdir, burada müəyyən təhdidlər və təhlükələr olmamış deyil:** "Gərək hər bir adam sosial şəbəkədən istifadə edəndə bir qədər ehtiyatlı olsun ki, özünün fərdi informasiyaları başqalarının əlinə keçməsin. Müəyyən qrup insanlar var ki, sosial şəbəkədən qeyri-qanuni istifadə edirlər. Öz arzu və istəklərini yeritmək üçün qarşı tərəfi şantaj, təhqir edirlər. Bu, bizdə də var, dünyada da. Ona görə də hər kəs gərək özünün informasiyasının qayğısına qalsın. Qarşı tərəfi şantaj, təhqir etmək davam edirsə, dərhal hüquq-mühafizə orqanlarına müraciət etmək lazımdır. Sosial mediada baş verənlərlə bağlı bizim məhkəmə çəkişmələri olub. Təhqirlə bağlı aidiyyəti qurumların - prokurorluq, hüquq-mühafizə orqanlarının borcudur ki, müraciətlə bağlı araşdırma aparsın. Həmin sosial media resursunun administrasiyası ilə də əlaqə saxlamaq, şikayət etmək olar. Düşünürəm ki, bunları etsək, nəticə əldə etmək olar".

**O.Gündüz bildirir ki, sosial şəbəkə terrorçuların qurbanına çevrilməmək üçün maarifləndirmə işləri artırılmalıdır:** "Eyni zamanda sosial medianın xətti ilə özümüz gərək internetin qayğısına qalaq, maarifçilik işləri görək. Bəzən insanlar törətdiyi əməllərin fərqinə varmırlar ki, cinayət törədirlər. Elə bilirlər, kiminsə şəxsi informasiyasını paylaşa bilər və ona heç nə olmaz. Ona görə də sosial media istifadəçiləri, hüquq müdafiəçiləri bunun nə ilə nəticələnə biləcəyi ilə bağlı gərək maarifləndirmə işləri aparsın. Sosial şəbəkədə başqasını təhqir edən şəxslərlə bağlı qanunvericilikdə cinayət işi düşür. Qanunvericilikdə sosial mediada təhqir və böhtanın da cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı bu yaxınlarda dəyişiklik olunub. Buna görə artıq inzibati cəza, yaxud xəbərdarlıqdan söhbət getmir, sosial şəbəkədə təhqir və böhtana görə yüksək cəza müəyyən olunur. Bəlkə də bunu edənlər törətdikləri əməldə cinayət işinin olmasından heç xəbərdar deyil. Maarifləndirmək lazımdır".

**Şəymən**

# Xırdalan-Bakı yolunun "tıxac dərdi"

## Ekspert unikal çıxış yolu göstərdi



**"Sol tərəfə Biləcəri istiqamətindən 9-cu mikrorayona, sağ tərəfdə isə Yasamal istiqamətinə ayrıca yol zolaqlarının çəkilməsi problemi birdəfəlik həll edə bilər"**

**Dekabrın 6-da xüsusi avtobus zolaqları ilə bağlı mətbuat konfransı keçirilib.**

Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat katibi Mais Ağayev konfrans zamanı bildirib ki, Xırdalandan Bakı şəhəri istiqamətində xüsusi avtobus zolağı çəkilə bilər. Onun sözlərinə görə, paytaxtda xüsusi avtobus zolaqları əvvəl 10 küçədə idisə, sonradan belə küçələrin sayı 17-yə çatdırılıb: "Eyni zamanda 49 küçə ilə bağlı belə zolağın çəkilməsi nəzərdə tutulub. Bu yolda tıxaclar qabarıq hiss olunur. Biz bununla bağlı təklif vermişik və digər müvafiq qurumların rəyindən sonra həmin ərazidə xüsusi zolağın çəkilməsilə bağlı qərar qəbul olunacaq".

**Yeni zolağın çəkilmə ehtimalına münasibət bildirən nəqliyyat üzrə ekspert İlqar Hüseynli "Şərq"ə açıqlamasında deyib ki, Xırdalan-Bakı yol infrastrukturunun bir hissəsini yalnız avtobuslara ayırmaq problemimizi həll etməyəcək:** "Digər nəqliyyat vasitələri üçün problem daha da artacaq. Problemi həll etmək istəyiriksə, Bakı Beynəlxalq Avtovağzal istiqamətindən təz başa gələn və rahat imkanlarla təmin olunan konstruksiyalı layihə hazırlanmalıdır.

Sol tərəfə Biləcəri istiqamətindən 9-cu mikrorayona, sağ tərəfdə isə Yasamal istiqamətinə ayrıca yol zolaqlarının çəkilməsi problemi birdəfəlik həll edə bilər.

Lakin indiki halda mövcud zolaqların birini də abtobuslara ayırıb, digər nəqliyyat növlərinin girişini qadağan etsək, onlar üçün yol daralacaq. Tıxacların bir hissəsi də "Abşeron" gənclər şəhərciyinə qədər dayana bilər".

**Aygün Tahir**

# Teatr direktorları özlərini ağa kimi aparır

## Yaşlı aktyorları məcburi qaydada təqaüdə göndərirlər



**"Son zamanlar teatrlardan müraciətlər çoxdur. Yaşlı aktyorları məcburi qaydada təqaüdə göndərirlər".**

Bunu Milli Məclisin dünən keçirilən iclasında deputat Aqil Abbas deyib. Deputat bildirib ki, sənətkarın yaşı olmur: "Şairə demək olar ki, 85 yaşdan sonra şeir yazma? Sənətkar yaradıcı adamdır, aktyor da eləcə. Xüsusilə Gənc Tamaşaçılar Teatrı və başqalarından söhbət gedir. Mədəniyyət Nazirliyi bu işə əncam çəkməlidir. Teatr direktorları özlərini ağa kimi aparırlar. Sanki özlərinə ayrı respublika yaradıblar və orada özlərini prezident kimi hiss edirlər. Tariyel Qasımov Azərbaycanın ən böyük aktyorlarından biridir, onu istefaya göndəriblər. Eləcə də başqalarını. Seyid Şuşinski, Xan Şuşinski neçə yaşına kimi oxuyub, o halda onlara deyərdik ki, oxuma?! Teatrları veriblər direktorların əlinə, onlar da istədiyi kimi davranır. Mədəniyyət Nazirliyi bu məsələyə diqqəti artırsın".

**İsmayıl**

# Dünyada qara qızıla tələbat yüksək deyil

## 2023-cü ildə neftin qiyməti bahalaşmayacaq



**"Avropa İttifaqının Rusiyadan idxal etdiyi neftin hər barelinə 60 dollarlıq qiymət tavanı müəyyənləşdirməsi birjalara təsirsiz ötüşməyib.**

Həlelik bazarda ciddi volatillik müşahidə olunmasa da dekabrın ilk günündən bəri bir bareli 90 dollara təklif edilən Brent markalı neftin qiyməti 83 dollaradək azalıb". Bu barədə deputat Vüqar Bayramov deyib. Parlament üzvü qeyd edib ki, bu, son 4 gündə neftin qiymətində 8 faizdən çox azalmanın olması anlamına gəlir: "Bu arada Səudiyyə Ərəbistanı da neft qiymətlərinə endirim tətbiq edib. "Saudi Aramco" yanvar təkliflərində Asiya üçün hər bareldə 2.20 dollar, "The Saudi" isə Avropa üçün 1.80 dollar qiymət azalmasına gedib. Bu, iri istehsalçıların neft bazarında baş verənlərə və eləcə də Qərbin qərarlarına priventiv reaksiyasından xəbər verir. Çin karantin qaydalarını yumşaltsa da "Sıfır Kovid" siyasətinin davam edəcəyini bəyan edib. Bu isə o deməkdir ki, yaxın aylarda da Çində neftə olan tələb yüksəlməyəcək. Dünyanın ikinci ən böyük neft istehlakçısındakı qərarlar neft bazarına birbaşa təsir edən faktorlar sırasındadır. Bu baxımdan, 2023-cü il üçün də neftin dünya bazar qiyməti ilə bağlı proqnozlar hələlik nikbin deyil. Azərbaycan üçün neftin dünya bazar qiymətini ölkəyə daxil olan valyutanın həcmi baxımdan əhəmiyyətlidir. Valyuta daxilolmalarının 80 faizi neft və neft məhsullarının payına düşür. Ölkəyə daxil olan valyutanın həcmi eyni zamanda milli valyutanın məzənnəsinə təsir göstərən faktorlardan hesab olunur. Bu baxımdan ümumi həcmi azaltmadan ixracatda və fiskal gəlirlərimizdə neftin payının azaldılması daha da prioritetləşməkdədir".

**İsmayıl**

# "Həkimlər deyir ki, dua edin"

## Reanimasiyaya heç kimi buraxmırlar



***"Atama lazımsız dərmanlar verilmişdi, həkim dedi ki, dozaları güclü olub..."***

**"Atam hal-hazırda reanimasiyadadır. Reanimasiyaya heç kimi buraxmırlar. Həkimlər deyir ki, dua edin. Onlar da əllərindən gələn hər bir şeyi edirlər. Atamın heç bir xəstəliyi yox idi.**

Birinci dəfə xəstəxanaya getdik, bir az yatdı, daha sonra evə gəldik. O zaman özünü yaxşı hiss edirdi. Sonra qəfildən ayaqları şişdi. O da vurdu böyrəklərinə, daha sonra ağciyərinə su gəldi. Başqa həkimin yanına getdik. Əfsuslar olsun ki, həkim dedi ki, dərmanların dozaları çox güclü olub, səhv verilib. Ona birinci dəfə xəstəxanada lazımsız dərmanlar verilmişdi".

Bunu moderator.az-a özəl açıqlamasında xalq artisti Aftandil İsrafilovun qızı Həcər İsrafilova deyib. O, daha sonra əlavə edib.

"Mən ondan təkcə ata yox, həm də dost münasibəti görmüşəm. O mənim dünyamdır. Çox güclü insan olub. Heç vaxt heç kimə əziyyət vermək istəməyib. Dərdini, kədərini hamıdan gizlədib. Sonuncu günə qədər dedi ki, yaxşıyam. Allah xeyirlisini nəsib etsin. Ümidimiz göydə Allaha, yerdə həkimlərədir. Yaş da öz sözünü deyir. 82 yaşı var. Hazırkı həkimlərindən çox razıyıq. Əllərindən gələni edirlər. Həkim də həkimdir də. Allah verir, Allah da alır. O məqamları da bilirik, ona görə də güclü olmalıyıq. Allahın möcüzəsinə inanırıq" deyə sənətkarın qızı deyib.

Həcər İsrafilova bildirib ki, sənət yoldaşları bir an olsun belə onu tək buraxmır.

"Bütün sənət yoldaşları zəng edir. Xalq artistləri Ağadadaş Ağayev, Ramiz Quliyev daim maraqlanır. Heydər Əliyev fondundan böyük diqqət görürük. Onlar atamın müalicəsini öz üzərlərinə götürüblər. Bütün xəstəxana xərclərini dövlət ödəyir. Cabir və Tahir İmanov qardaşları mənə xəstəxana işlərində çox böyük kömək etdilər. Allah onların hər birindən razı olsun" deyə sənətkarın qızı deyib.



# Rauf Hacıyevin 100 illiyi qeyd olundu

**Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Azərbaycanın Xalq artisti Rauf Hacıyevin anadan olmasının 100 illiyi münasibətilə "Bu həyat qədər" adlı estrada-caz konserti keçirilib.**

Yubiley tədbirində Mədəniyyət Nazirliyinin nümayəndələri, xalq artistləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konsertdə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, "Qaya" Dövlət Ansamblı, Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının Estrada Simfonik Orkestri, eləcə də tanınmış Xalq artistləri, gənc ifaçılar çıxış edib.

*Qeyd edək ki, Prezident İlham Əliyev Xalq artisti Rauf Hacıyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.*

# "Əli və Nino" ləğv olunur



**"Əli və Nino" kitab mağazaları şəbəkəsinin və Milli Kitab Mükafatının təsisçisi Nigar Köçərli iki şirkətini ləğv edir.**

Axşam.az bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Vergilər" qəzetinə istinadən xəbər verir. Məlumata görə, Azərbaycanda eyni hüquqi ünvanda dövlət qeydiyyatına alınmış "Əli və Nino Qrup MMC" və "Nigar 1975" MMC-lər ləğv olunduqlarını elan edib. Kreditorlar tələblərini 2 ay ərzində Bakı şəhəri, Nəsimi rayonu, Qulu Quliyev küçəsi, ev 41, mənzil 75 ünvanına bildirə bilərlər.

*Xatırladaq ki, hər iki şirkət 2014-cü ildə qeydiyyatdan keçib. Onların nizamnamə kapitalı müvafiq olaraq 100 manat və 10 manatdır. Bu şirkətlərdən başqa, N.Köçərliyə məxsus "Əli və Nino", "Əli və Nino Nəşriyyatı" MMC-lər də var.*

# Ölən uşaqların sayı 9-a yüksəldi

## "Strep A" infeksiyasının artması mütəxəssislərdə narahatlıq yaradıb

(Əvvəli səh: 8-də)

**"Sterp A" və ya A qrupu steptokok bakteriyaları boğazda və dəridə əmələ gələn bakteriya növüdür. İnsanlarda adətən konkret hansısa əlamətlərlə özünü göstərmir. Amma burun, boğaz və ağ ciyərlərdə fərqli xəstəliklərə səbəb olur.**



Xəstəliyin əlamətləri boğaz ağrısı, udqunmada çətinlik, ağrı, qızdırma, badamcıqların rəngində ağarma və şişkinlik, boyun vəzlərinin şişməsi, dəri quruluğuyla özünü göstərir. Nəticədə badamcıqlarda iltihab, farangit, dəri infeksiyaları, selülit, saturasiya pozğunluğu yaranır. Boğaz infeksiyaları çox zaman tez sağalır. Dəri infeksiyalarının müalicəsi isə antibiotik tələb edə bilər.

Bakteriyalar invaziv GAS xəstəliyinə səbəb olduqda isə vəziyyət dəyişir və daha ciddi müalicəyə ehtiyac yaranır. İnvaziv GAS xəstəliyinin ən ağır növləri Streptokokal Toksik Şok sindromu və "Nekrotizan Fasiit" dir ki, buna "ət yeyən xəstəlik" də deyilir. Bu, toxumaların pozulmasına gətirib çıxarır. Şiddətli əzələ ağrısı, yüksək hərarət, bədənin hansısa hissəsində ağrılar, yara olan hissədə qızartılar, qusma və ya ishal bu xəstəliyin əlamətləridir. Bu əlamətlər varsa, həkimə təcili müraciət edilməlidir.

"London College" Universitetinin Yoluxucu Xəstəliklər və Pandemiya Tədris Proqramı üzrə əməkdaşı Oksana Pysik "Strep A"-nın ümumi halda qrip şəklində ortaya çıxa biləcəyini söyləyib. O. Qriplə "Strep A"-nı fərqləndirmək üçün uşaqların dilinin üzərinə diqqət edilməlidir. Dilin üzərində ağ köpüyə oxşar görüntü yaranıbsa, təcili müalicəyə başlanmalıdır. Pysik, "bunu valideynlər narahat olsun yox, sadəcə, müalicə üçün vaxt itirməsinlər deyə bildiririk", - söyləyib.

**Məlahət**

**Elan**

"Jurnalist Təşəbbüslərinin Təşviqi" İctimai Birliyinə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Axundova Nuranə İlham qızı ilə "Abidə" MTK arasında Bakı şəhəri, Yasamal rayonu, M.Muxtarov, L.Tolstoy, S.Tağızadə və Zərgərpalan küçələrinin kəsişməsində, 252-ci məhəllə ünvanında "Abidə" MTK tərəfindən inşa olunan yaşayış kompleksində 3 saylı blokun 10-cu mərtəbəsində yerləşən, ümumi sahəsi 170 kv.m. olan 4 otaqlı 134 saylı mənzilə dair imzalanmış 12 oktyabr 2013-cü il tarixli müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi, AzTu nəzdində Bakı Rabitə və Nəqliyyat kolleci, tələbə bileti № 22119 Çox kanallı telekommunikasiya sistemləri Çt 410B, Allahverdiyeva Gülşən Darvin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3541



## Cef Bezos və İlon Mask Bakıya gələ bilər

**"Amazon"un qurucusu və rəhbəri Cef Bezos və ABŞ-ın "Space X" şirkətinin rəhbəri İlon Mask (Elon Musk) 2-6 oktyabr 2023-cü ildə ölkəmizdə baş tutacaq Beynəlxalq Astronavtika Konqresində iştirak edə bilər.**

Bunu Beynəlxalq Astronavtika Konqresinə dair Azərbaycanda fəaliyyət göstərən səfirlik və diplomatik nümayəndələr ilə görüş zamanı "Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov deyib.

O bildirib ki, "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda Bakıda keçiriləcək konqresdə kosmik sahənin aparıcı qurumlarından - ABŞ-ın (NASA), Fransanın (CNES), "Airbus", "Boeing", Yaponiyanın (JAXA), Türkiyənin (TUA) və bir çox digər dövlətlərin nümayəndələri də olmaqla 6 mindən çox qonaq bir araya gələcək. Bu qonaqlar dünyanın kosmos gündəliyini müəyyən edən qurumların rəhbərləridir, nümayəndələridir, eyni zamanda elm xadimləri və tələbələrdir.(APA)

## Yaponları qəzəbləndirdi

Xorvat model həbslə təhdid olunub



**Qətərdə keçirilən Dünya Çempionatında geyindiyi paltara görə qətərlilər tərəfindən həbslə təhdid edilən və "ölkəni tərk et" çağırışı edilən xorvat model İvana Knoll tribunalarda ölkəsini dəstəkləməyə davam edir.**

Son Yaponiya matçında tribunada olan İvana Knoll oyunöncəsi paylaşımları ilə yaponları qəzəbləndirib.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, məşhur model sosial media hesabında matçdan əvvəl Yapon mətbəxindən suşi yediyi fotoları yayımlayıb. Knoll, "Bu gün menyumuzda Yapon suşi var. Yaponiya sizin üçündür" qeydini yazıb. Onun paylaşımından sonra yapon fanatlar məşhur modelə reaksiya verib. Penaltilər seriyasından sonra xorvatlar yaponları 3:1 hesabı ilə məğlub edərək 1/4 finala vəsiqə qazanıblar. Xorvat millisi növbəti mərhələdə Braziliya ilə qarşılaşacaqlar.

**Turan**

## Tatlısəsin doğulduğu mağara muzey oldu






**Türkiyəli müğənni İbrahim Tatlısəsin doğulduğu mağara muzey olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, Urfanın Hızmalı məhəlləsindəki evə restavrasiyadan sonra "İbrahim Tatlısəsin böyüdüyü mağara" adı verilib.**

**Bu addım turizmin inkişafı üçün atılıb.**

**Qeyd edək ki, sənətçi 1952-ci ildə həmin evdə dünyaya gəlib.**

## Ledi Qaqanın itlərini oğurlayan şəxs 21 illik həbs olundu



**Amerikalı müğənni-aktrisa Ledi Qaqanın itlərini oğurlayan və köməkçisini güllələyən şəxs haqqında qərar qəbul edilib.**

**Axşam.az xəbər verir ki, məhkəmə müttəhim 20 yaşlı Ceyms Hovard Ceksonun 21 il müddətinə azadlıqdan məhrum edilməsi ilə bağlı hökm çıxarıb. Şəxs hakimin qərarına etiraz etməyib.**

**Qeyd edək ki, hadisə ötən ilin fevralında baş tutub. Ümumilikdə polis beş şübhəli şəxsi saxlayıb. Hətta L.Qaqa itlərini geri qaytarana 500 min dollar (850 min manat) mükafat verəcəyini açıqlamışdı.**

## Sevgiləri 3 ay çəkdi



**Türkiyəli məşhur cütlük - aktrisa Pınar Denizlə aktyor Kaan Yıldırım ayrılıb.**

**Axşam.az xəbər verir ki, "2. sayfa"nın məlumatına görə, Kaan aktrisanın hamamdan paylaşdığı fotodan sonra qısqanclıq zəminində ayrılıq qərarı alıb. Buna baxmayaraq, ikilinin sosial media üzərindən hələ də bir-birini izləməsi və birgə şəkillərini silməməsi diqqət çəkib.**

***Qeyd edək ki, cütlük 3 aydır münasibətdədir.***




# 2023-cü il əla fürsətdir

### Başqalarını sevindirmək və ya incitməmək üçün hər şeyə "hə" deyən günlər geridə qaldı







**Yeni il qapıdadır! Yaxşı, pis - tam bir ili geridə qoyuruq. Təcrübələrimizdən öyrənirik və gələn ilə daha böyük ümid və həvəslə daxil oluruq. 2023-cü ili daha məhsuldar və xoşbəxt keçirmək istəyirsinizsə, bəzi qərarlarınızı yenidən nəzərdən keçirə bilərsiniz. Budur ən məşhur Yeni il qərarları...**

Bu il ehtiyaclarınızı bir daha nəzərdən keçirin, lazımsız xərclərdən qaçın. Yeni ilə özünüzü sevərək başlayın. Təkcə xüsusi günlərdə deyil, gündəlik həyatınızda da şəxsi qayğınıza laqeyd yanaşmayın.

Hazırkı dostlarınızı çox sevdiyinizə əminik, lakin həyatınıza daxil olan yeni insanlar gözlənilməz şəkildə həyatınıza toxuna bilər.

Gərgin iş həyatınız və məsuliyyətləriniz sosial həyatınızı məhdudlaşdıra bilər, ancaq gələn il ailəniz və dostlarınızla daha çox vaxt keçirməyə çalışın.

Pandemiya şərtləri və artan maliyyə çətinlikləri səyahət etməyi çətinləşdirə bilər, lakin hətta eyni uzaq şəhərdəki bir dostunuzu ziyarət etmək sizə yaxşı kömək edəcək.

Hər ay, bəlkə də hər gün daha nizamlı və sağlam pəhrizə keçməyi düşünürsünüz, bu il bunun reallaşması üçün əlinizdən gələni edin.

Ola bilsin ki, siz uzun illərdir siqaret çəkirsiniz və siqareti buraxmaq fikrinə belə gəlmirsiniz, amma unutmayın ki, heç bir şey üçün heç vaxt gec deyil! Artıq kilolarınızdan xilas olmaq və ya kifayət qədər formada olsanız belə şux bədənə sahib olmaq istəyirsinizsə, o zaman 2023 sizin ilininiz olsun. İdmana başla!

Başqalarını sevindirmək və incitməmək üçün hər şeyə "hə" deyən günlər geridə qaldı. Bu il "yox" deməkdən qorxmayın!

Ola bilsin ki, hamının hər zaman danışdığı o məşhur teleseriala yekun vurmusunuz. Smartfon və televizora ara verin və kitab dünyasına qərq olun.

2023-cü ildə evdə oturmaq olmaz! Sevdiklərinizlə daha çox vaxt keçirin. Tədbirlərə gedin, yeməyə çıxın, rəqs edin...

Həyat bəzən çox yorucu və stresli ola bilər. Uzun müddət basdırılan narahatlıq və stres həyat keyfiyyətinizə mənfi təsir göstərə bilər.

Məyusluqlarınızı keçmişdə buraxın və yeni sevgilərə yelkən açın. Bəlkə də bu il həyatınızın eşqinə rast gələcəksiniz.

Gələn il "bu günün işini sabaha buraxma" vədi sizin həyat şüarınız olsun. Təxirə saldığınız hər şeyi bir-bir həyata keçirin.

İş və ictimai həyatınız bəzən ailənizə laqeyd yanaşmanıza səbəb olurdu. Bu il bunu dəyişmək və onlarla daha çox vaxt keçirmək üçün əla fürsətdir.

**Turan**



# Ölən uşaqların sayı 9-a yüksəldi

### "Strep A" infeksiyasının artması mütəxəssislərdə narahatlıq yaradıb



**Böyük Britaniya Səhiyyə Mühafizə Agentliyi (UKHSA) son 1 həftə içində İngiltərə və Qalliyada "Strep A" diaqnozu qoyulduqdan sonra bakteriyaların yaratdığı invaziv GAS xəstəliyinə yoluxma səbəbindən vəfat edən uşaqların sayının 9-a yüksəldiyini açıqlayıb. Vəfat edənlərin hamısı 10 yaşa qədər uşaqlardır.**

Bu fakt dünya miqyasında narahatlıq yaradıb, xüsusən valideynlər arasında qorxu və təşvişə səbəb olub. UKHSA məlumatına görə, bu il İngiltərədə 1-4 yaş arası 100 min uşaqdan 2,3 faizinə "Strep A" diaqnozu qoyulub. Bu göstərici pandemiyadan əvvəlki göstəricilərdən dəfələrlə yüksəkdir. Agentlik son bir neçə həftə ərzində uşaqlar arasında aşağı tənəffüs yollarında "Strep A" infeksiyasının ciddi xəstəliyə səbəb olduğunu müəyyən edib. A qrupu strep bakteriyaları yüngül xəstəliklərdən tutmuş ən ağır xəstəliklərədək bir çox infeksiyalar yarada bilir. Lakin indiyədək bu infeksiyaların ölümə gətirib çıxardığı halları olmamışdı. Uşaqlar arasında ölüm faktlarının artması mütəxəssislərdə narahatlıq yaradıb. Və ciddi araşdırmaların aparılması vacibliyini önə çəkib. Mütəxəssislər hesab edir ki, "Strep A" virusunun geniş yayıldığını söyləmək tezdir, lakin virusun yayılma səbəbi bakteriyaların sayının çoxluğu və sosiallaşmadır. Virusa bulaşmış bir uşağın sosial əhatəsi genişdirsə, virusun digər uşaqlara yayılma ehtimalı da yüksəlir.

*(Davamı səh: 7-də)*

**Turan**

## Dəhşət yaşandı

8 aylıq hamilə qadını öldürərək körpəsini oğurlayıblar



**Noyabrın 26-da Meksikanın Nuevo Leon əyalətinin Eskobedo şəhərində mobil telefon tətbiqi ilə çağırılan taksiyə mindikdən sonra yoxa çıxan 19 yaşlı 8 aylıq hamilə qadının cansız bədəni günlər sonra tapılıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Nuevo Leon Əyalət Baş Prokurorluğundan verilən açıqlamada bildirilib ki, 8 aylıq hamilə olan Marta adlı gənc qadının cəsədi öldürülən başqa bir qadının cəsədi ilə birlikdə anbarda tapılıb. Martanın körpəsinin oğurlandığını və boğulduğunu açıqlayan Baş Prokurorluq, öldürülən digər qadının Marta ilə taksidə gedən 34 yaşlı rəfiqəsi Klaudiya olduğunu bildirib.

Oğurlanan körpənin taleyi hələlik məlum olmasa da, Baş Prokurorluq hadisə ilə bağlı araşdırmanın qadın qətli çərçivəsində aparıldığını və oğurlanmış körpənin axtarıldığını bildirib.

**Turan**

## "Sony" insanabənzər robotların istehsalına hazır olduğunu bildirib



**"Sony" korporasiyasının baş texnoloqu Hiroaki Kitano kompaniyanın insanabənzər robotların istehsalına hazır olduğunu bildirib.**

Azərtac xəbər verir ki, Hiroaki Kitano bunu Reuters agentliyinə müsahibəsində deyib.

"Dünyanın bir neçə kompaniyası, o cümlədən "Sony" perspektivi aydınlaşan kimi insanabənzər robotların tez bir zamanda istehsalı üçün kifayət qədər texnologiyaya malikdir", - deyə o bildirib.

Məişət və peşəkar elektronika məhsulları istehsal edən və maliyyə xidmətləri göstərən "Sony" kinofilmlər, televiziya və musiqi proqramları, videooyun konsolları və kompüter oyunları hazırlayan törəmə şirkətləri ilə dünyanın ən böyük media korporasiyalarından biridir. Korporasiya "Sony Music Entertainment" səsyazma markasına, "Columbia Pictures" və "TriStar Pictures" kinostudiyalarına, həmçinin MGM studiyasının filmlərinin tam arxivinə (ABŞ-ın "Comcast" kompaniyası ilə müştərək) sahibdir.

Holdinqin digər bölmələri müxtəlif maliyyə xidmətləri - müxtəlif sığorta növləri, lizinq fəaliyyəti və kreditləşmə ilə məşğul olur.